## 2025-ci ildə ilk uçuşunu həyata keçirəcək

Ərdoğan Türkiyənin milli döyüş təyyarəsi ilə bağlı son vəziyyəti açıqlayıb



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsinin milli döyüş təyyarəsi ilə bağlı son vəziyyəti açıqlayıb.**

APA-nın yerli bürosunun xəbərinə görə, Türkiyə dövlət başçısı bildirib ki, milli döyüş təyyarəsi 2023-cü ildə təqdim ediləcək və 2025-ci ildə ilk uçuşunu həyata keçirəcək.

"Milli döyüş təyyarəmiz Hərbi Hava Qüvvələrimizin vurucu gücü olaraq 2029-cu ildə göylərə qalxacaq" - Ərdoğan vurğulayıb.



## Qazaxıstan xarici vətəndaşların ölkəyə girişini dayandırıb

**Qazaxıstan fövqəladə vəziyyət rejimi ilə əlaqədar xarici vətəndaşların ölkəyə girişini dayandırıb.**

Bu barədə Qazaxıstanın Özbəkistandakı səfirliyi bildirib.

*Qeyd edək ki, ölkədə kütləvi iğtişaşlar fonunda fövqəladə vəziyyət rejimi tətbiq olunub, əsas hava limanları fəaliyyətini dayandırıb.*

№ 2 (5524), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 7 yanvar 2022-ci il (cümə)



## İctimai nəqliyyatda gediş haqqı artırılır?

Hələ ki, heç bir qurum Tarif Şurasına müraciət etməyib

**Azərbaycanda un və çörəyin qiymətindəki bahalaşmadan sonra ictimai nəqliyyatda da gediş haqlarının artacağı ehtimalı irəli sürülüb. Bu barədə feysbukda müəyyən iddia və ehtimallar yayılıb.**

*Məsələyə aydınlıq gətirən Bakı Metropoliteni QSC mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov "Şərq"ə bildirib ki, Bakı Metropoliteni sosial yönümlü nəqliyyat infrastrukturu olduğundan daim dövlətin dəstək və qayğısı ilə əhatə olunur:* "Hətta pandemiya şəraitində respublika üzrə elan edilmiş xüsusi karantin rejiminin davam etdiyi uzun müddət ərzində də Bakı metropoliteninin işlək vəziyyətdə saxlanılması ilə bağlı zəruri xərclər qarşılanıb.

(səh.4)



## 1800 nəfərin eyni anda ibadət etməsi mümkündür

Prezident və birinci xanım məscidin yeni binasında yaradılan şəraitlə tanış olublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin yeni binasında yaradılan şəraitlə tanış olublar.**

Məscidin qəzalı vəziyyətdə olan əvvəlki ikimərtəbəli binasında dindarların ibadəti üçün heç bir şərait yox idi.

(səh.2)

## "Biz artıq istehlak etmirik, istehsal edirik"

Hulusi Akar: "Türkiyə müdafiə və təhlükəsizliyini öz imkanları hesabına təmin edir"



**Müdafiə sahəsində güclü və müstəqil olmayan millətlərin gələcəklərini etibarlı şəkildə qurması qeyri-mümkündür.**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar bir sıra hərbi sənaye obyektlərinin rəsmi açılışı mərasimində deyib. "Türkiyə artıq istehlak etmir, istehsal edir, idxal etmir, ixrac edir, müdafiə və təhlükəsizliyini başqa ölkələrin iradəsinə uyğun olaraq deyil, öz imkanları ilə təmin edir, və həmdə dost, qardaş dövlətlərin ehtiyaclarını da ödəyir". Nazir müdafiə sahəsində güclü və müstəqil olmayan millətlərin gələcəklərini etibarlı şəkildə qurmasının mümkün olmadığını da vurğulayıb: "Biz indi yerli avtomatlarımızı, ağıllı dəqiq döyüş sursatlarımızı, milli dəniz artilleriyasini, yaylım atəşli reaktiv sistemləri, Fırtına haubitsalarını, PUA, silahlı PUA, hücum PUA-ları, ATAK helikopterlərini, freqatlarımızı və döyüş gəmilərimizi layihələndirmək, istehsal və ixrac etmək səviyyəsinə çatmışıq".

# KTMT qoşunları qısa müddətdə qalacaq

Qazaxıstanda kütləvi iğtişaşlarla bağlı cinayət işi açılıb



**Qazaxıstanda kütləvi iğtişaşlarla bağlı cinayət işi açılıb, terror aktları ilə bağlı ibtidai istintaq başlayıb. Bu barədə "Xabar-24" televiziya kanalı prokurluğa istinadən bildirib.**

Məlumata əsasən, Qazaxıstanda kütləvi iğtişaşların təşkilində təqsirli bilinənləri 8 ildən ömürlük həbs cəzasına qədər cəza gözləyir.

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) sədri Stanislav Zas Qazaxıstana 2500 nəfər sülhməramlı göndəriləcəyini açıqlayıb. O, əlavə edib ki, zərurət yaranacağı təqdirdə bu say artırıla bilər:

"Sülhməramlı qüvvələrin Qazaxıstanda qalma müddəti vəziyyətdən və respublika rəhbərliyinin qərarından asılı olacaq, əməliyyat başa çatdıqdan sonra qoşunlar çıxarılacaq".

*Zas bildirib ki, qoşunların qalma müddətinin qısa olacağı gözlənilir:*

"Bu müddətin bir neçə gün və ya bir neçə həftə olacağı Qazaxıstanda yaranan vəziyyətdən və təbii ki, Qazaxıstan rəhbərliyinin mövqeyindən asılı olacaq".

Onun sözlərinə görə, əgər respublika rəhbərliyi "vəziyyətin sabitləşdiyini və ona bütün dövlətlərimizin köməyi olmadan öz qüvvələri tərəfindən nəzarət edildiyini hesab edərsə, təbii ki, əməliyyat başa çatacaq, bütün qoşunlar çıxarılacaq".

## Fevralın 15-dən..

Bəzi vətəndaşların "Peyvənd sertifikatı" etibarsız sayılacaq



**"İkinci dozadan 6 ay sonra qoruyucu immunitetin səviyyəsinin azalmasını nəzərə alaraq, bədənin anticisimlərini yenidən yüksək səviyyəyə çatdırmaq üçün gücləndirici doza qəbul olunmalıdır".**

Bu barədə APA-nın sorğusuna cavab olaraq Səhiyyə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, əks halda 2-ci dozanın üzərindən 6 aydan çox keçmiş şəxslərin "Peyvənd sertifikatı" fevralın 15-dən etibarlı hesab edilməyəcək.

Həmçinin bildirilib ki, "İmmun sertifikatı" olan şəxs xəstəliyindən 6 ay keçdikdən sonra buster doza qəbul edibsə, onun "İmmun sertifikatı" "Peyvənd sertifikatı" ilə əvəzlənir. Bu səbəbdən fevralın 15-dən həmin şəxsin "Peyvənd sertifikatı"nın müddətinə hər hansı bir məhdudiyyət qoyulmayacaq.

## Dava Nursultan davası idi

36 ildir Qazaxıstana diş qıcayırdılar

**İndi qonşunun qoşunu çiçəklənən, parlayan bir ölkənin türk qapısını bağlayacaq**



**Qazaxıstanda qazın bahalaşması ilə bağlı yanvarın 2-dən davam edən etiraz aksiyaları səngiməyib.**

Prezident Qasım-Jomart Tokayevin müraciəti əsasında Qazaxıstana daxil olmuş Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı qüvvələri də etirazları tamamilə söndürə bilməyib. Almatı şəhərində baş vermiş iğtişaşlarda hüquq-mühafizə orqanlarının 12 əməkdaşı öldürülüb. Etirazçılar beş teleyayımçının ofisinə hücum ediblər.

(səh.3)

## Son sutkada 584 nəfər koronavirusa yoluxub

13 nəfər vəfat edib, 851 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 584 yeni yoluxma faktı qeydə alınıb, 851 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 13 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 619 502 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 603 906 nəfər müalicə olunaraq sağalıb, 8 422 nəfər vəfat edib, aktiv xəstə sayı 7174 nəfərdir.*

## Bu tədris ili məktəbli formalarına maraq çox az olub



**Bu tədris ili məktəbli formalarına maraq çox az olub. Çox az sayda valideyn övladlarına məktəbli formaları alıblar.**

Bu barədə Bakı Tekstil Fabrikinin rəhbəri Səkinə Babayeva Trend-ə açıqlamasında yeni məktəbli geyimləri barədə təkliflər irəli sürdüklərini bildirib.

S.Babayeva vurğulayıb ki, mağazalarda lazımi sayda məktəb formaları olub.

"Məktəbli formalarının satışı çox aşağı olub. Valideynlər çox az maraq göstərdi. İnsan axını yox idi, valideynlər maraq göstərmirdi. Təbii ki, bu, pandemiya ilə əlaqədar olaraq belə idi, onlar bilimirdi məktəb davamlı olaraq açıq olacaq, ya yox", - deyə S.Babayeva qeyd edib.

Onun sözlərinə görə, növbəti tədris ili üçün kifayət qədər məktəbli forması ehtiyatı var.



## Tahir İmanov telekanallara "od püskürdü"

"Azərbaycan mahnıları, Azərbaycan musiqiləri səslənmir, yad bir harmoniya var"

(səh.7)

## Yoluxma saylarında artım olacaq

Omikron ştamının Azərbaycana gəlmə riski böyükdür



(səh.2)

# 1800 nəfərin eyni anda ibadət etməsi mümkündür

## Prezident və birinci xanım məscidin yeni binasında yaradılan şəraitlə tanış olublar





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində ”Xanım Fatimeyi Zəhra” məscidinin yeni binasında yaradılan şəraitlə tanış olublar.**

Məscidin qəzalı vəziyyətdə olan əvvəlki ikimərtəbəli binasında dindarların ibadəti üçün heç bir şərait yox idi. Məsciddə eyni vaxtda maksimum 500-550 nəfər ibadət edə bilirdi. İbadət edənlərin sayı çox olduğundan, məscidə üz tutanlar məcbur qalıb açıq havada ibadət edirdilər. Odur ki, qəsəbədə daha müasir və geniş məscid kompleksinin tikintisinə ehtiyac yaranmışdı.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, məscid kompleksi üçün müasir konsepsiya hazırlanıb və yeni bina inşa olunub.

İndi isə məsciddə, eyni zamanda, 1800 nəfərin ibadət etməsi mümkün olacaq. Yeni məscid kompleksində kişilərin və qadınların ibadəti üçün bütün zəruri şərait yaradılıb. Kompleksin inşası zamanı Abşeron məscidlərinin memarlıq üslubuna uyğun elementlərdən istifadə olunub. Buraya ağac materialından hazırlanmış şəbəkələr də daxildir.

Məscid kompleksinin diametri 4 metr və hündürlüyü 42 metr olan iki minarə və hündürlüyü 25 metr olan günbəz bəzəyir.

Kompleksə dindarların dəstəmaz alması, dini ayinlərin keçirilməsi üçün xüsusi binalar da daxildir.

Məsciddə mərkəzləşdirilmiş havalandırma sistemi yaradılıb, ətraf ərazi yaşıllaşdırılıb.

Yeni Günəşli qəsəbəsində ”Xanım Fatimeyi Zəhra” məscidinin müasir kompleksinin istifadəyə verilməsi bir daha sübut edir ki, İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ölkəmizdə dövlət siyasətinin vacib tərkib hissələrindəndir.

## Ərdoğan: “Türkiyə PUA istehsalında ilk üçlükdədir”



**Türkiyə dost və müttəfiq ölkələrin də müdafiə təyinatlı məmulatlarla bağlı ehtiyaclarını ödəyən bir ölkəyə çevrilib.**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

Dövlət başçısı daha sonra əlavə edib: ”Öz hərbi gəmisini hazırlayan 10 ölkənin arasında yer alırıq. PUA istehsalında isə artıq dünyanın üç ölkəsindən biriyik”.

## Blinken: “ABŞ Qazaxıstanda baş verənləri diqqətlə izləyir”



**ABŞ Dövlət katibi Entoni Blinken Qazaxıstan xarici işlər naziri səlahiyyətlərini icra edən Muxtar Tleuberdiyə zəng edib.**

Telefon danışığı zamanı Blinken ABŞ tərəfinin Qazaxıstanda baş verənləri diqqətlə izlədiklərini söyləyib.

O, Qazaxıstanda Kütləvi İnformasiya Vasitələrinin müstəqilliyini və konstitusion institutlara dəstəyini vurğulayıb. (apa)

*Blinken ölkədə vəziyyətin dinc yolla həll olunacağına ümidini ifadə edib.*

## Yoluxma saylarında artım olacaq

### Omikron ştamının Azərbaycana gəlmə riski böyükdür



**COVID-19-un Omikron ştamının ölkəmizə gəlmə riski böyükdür.**

Bunu Trend-ə açıqlamasında Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov deyib.

Onun sözlərinə görə, hazırda ölkədə pandemiya ilə bağlı epidemioloji durum stabildir.

”Bayram günlərində insanların təmasları ilə bağlı əhəmiyyətli artımın olması düşünülmür. Lakin Omikron ştamının ölkəmizə gəlmə riski böyükdür. Hələ ki, bu ştamın Azərbaycanda olması rəsmi təsdiqlənməyib. Lakin bu zaman məsələsidir və Omikron ştamının Azərbaycanda aşkarlancağı halda yoluxma saylarında artımın olacağı proqnozlaşdırıla bilər” - T.Eyvazov əlavə edib.

Mütəxəssis Fransada koronavirusun yeni aşkarlanmış ”İHU” və ya ”B1640.2” adlı variantına da münasibət bildirib. O qeyd edib ki, yeni ştamın xassələri, yəni, yoluxuculuq və xəstəliktörətmə qabiliyyəti haqqında hələ ki, tutarlı məlumatlar yoxdur.

## Teleseriallarla bağlı vəziyyət yaxşılaşmağa doğru gedir

### Artıq bəzi kanallar nisbətən bahalı serialların çəkilişinə başlayıblar



**Milli Televiziya və Radio Şurasının (MTRŞ) sədri İsmət Səttarov Azərbaycanda çəkilən və efirdə yayımlanan teleserialların keyfiyyəti ilə bağlı məsələyə münasibət bildirib.**

İ.Səttarov Trend-ə açıqlamasında qeyd edib ki, 2013-cü ildən bəri teleserial çəkilişinə dövlət tərəfindən vəsait ayrılmır:

”Dövlət tərəfindən vəsait 2012 və 2013-cü illərdə ayrıldı. Cəmiyyətdə elə başa düşürlər ki, dövlət pul ayırır, telekanallar keyfiyyətsiz seriallar çəkirlər. Telekanallar serialları öz vəsaitləri hesabına çəkirlər. Əlbəttə, bizim telekanalların çəkdiyi serialları türk, avropa serialları ilə müqayisə etmək çətindir, çünki vəsaitləri azdır.

Ancaq son vaxtlar artıq bəzi kanallar nisbətən bahalı serialların çəkilişinə başlayıblar və onların da keyfiyyəti fərqlidir, xarici teleserialların keyfiyyəti ilə eyni olmasa da, nisbətən həmin səviyyəyə yaxınlaşır. Əsas odur ki, artıq serial sənayesi yaranıb, prodakşnlar, telekanallar seriallar çəkirlər. Təbii ki, serialların keyfiyyətlisi də, keyfiyyətsizi də var. Ancaq ümumi tendensiya yaxşıdır, yaxşılaşmağa doğru gedir. Bu uzun vaxt və vəsait tələb edən bir prosesdir”, - deyə İ.Səttarov vurğulayıb.

# Neftin bahalaşması arzuolunan deyil

## Ən sərfəli qiymət həddi 60-65 dollar sayılır

İsmayıl Qocayev

**Dünya bazarında ”Azeri Light” markalı neftin qiyməti artıb. Azərbaycan neftinin 1 barelə olan qiyməti 1,73 dəfə artaraq 84,22 dollar təşkil edib. Neftin qiymətinin artım tempi son 12 ilin rekord səviyyəsinə çatıb. Rekord hədd ötən ilin oktyabr ayında olub. ”Brent” markalı neftin bir barelinin qiyməti 86,70 dollara kimi bahalaşıb. 2022-ci ildə də neftin qiymətinin artması gözlənilir.**

Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, neft istehlakı pandemiyadan əvvəlki həddə çatacaq və sutkalıq 99,53 milyon barel təşkil edəcək. 2021-ci ildə bu göstərici 96,2 milyon barel olub. Lakin neftin qiymətinin bahalaşması ilə bağlı fərqli yanaşmalar var. Əksəriyyət neftin qiymətinin artmasını sevinclə qarşılasa da, bir sıra iqtisadçılar, xüsusən neft maqnatları qiymətlərin 60-70 dollar civarında qalmasının tərəfdarı kimi çıxış edirlər. Onların fikrincə, neftin sürətli bahalaşması və 100 dolları keçməsi bazar üçün problemlidir. Bir müddət öncə ”Lukoil” şirkətinin prezidenti Vahid Ələkbərov da bildirmişdi ki, dünya bazarında neftin bir barelinin qiymətinin 65-75 dollar olması həm istehsalçılar, həm də istehlakçılar üçün arzulanandır. Onun sözlərinə görə, yüksək neft qiymətləri bazar üçün çökmə riski yaradır: ”Qiymətlərin 100 dollardan artıq olmasını istəməzdim. Çünki bu, aşağı gəlirli, təsirsiz layihələrə investisiyaları stimullaşdıra bilər və bazarın çökməsinə səbəb ola bilər”.



**Son aylar neftin qiymətindəki yüksəlişlə bağlı ”Şərq”ə danışan iqtisadçı-ekspert Pərviz Heydərov deyib ki, bahalaşmanın bir neçə səbəbi var.** Ekspert vurğulayıb ki, ən mühüm səbəb dünya iqtisadiyyatının tədricən pandemiya şəraitindən çıxmasıdır: ”Pandemiyadan sonra neftə tələbat artsa da, neft istehsalı ona adekvat olmayıb. Bu da təbiidir, çünki pandemiyadan ciddi ziyan görən neft müəssisələri yeni tələblərlə ayaqlaşmaq iqtidarında deyil. Əslində hazırda neftin dünya bazarındakı qiyməti heç də mövcud reallığa uyğun deyil. Qiymətin 85 dollara çatması tələb-təklif arasındakı fərqdən qaynaqlanır. Bilirsiz ki, OPEK-in sonuncu iclasında qərara alınıb ki, hasilat hər ay üzrə artırılsın. Bu qərarın bazarlardakı neft qiymətlərinə nə dərəcədə təsir göstərəcəyini demək çətindir. Görünən odur ki, qiymətlər hələlik yüksəlməkdədir. Bu da əsasən Çin iqtisadiyyatının inkişafı və Avropa Birliyi ölkələrinin tələbatı ilə bağlıdır”.

**P.Heydərov bəyan edib ki, bu tendensiya bir müddət davam edəcək:** ”Ümumiyyətlə isə neftin hamı üçün ən münasib qiyməti 60-65 dollar civarıdır. Bu, bütün neft hasil edən ölkələr üçün ən sərfəli qiymət həddi sayılır. Hazırkı qiymət bundan çox da yüksək deyil. Bahalaşmanın 100 dolları keçəcəyi ehtimalı isə çox azdır. Nəzərə alaq ki, hazırda neftin və dolayısı ilə yanacağın qiymətinin yüksəlməsi digər ərzaq və qeyri-ərzaq məhsullarının, o cümlədən daşınmanın da bahalaşması deməkdir. O səbəbdən indiki dönəmdə neftin qiymətinin kəskin bahalaşması arzuolunan deyil. Neftin qiymətinin bahalaşması uzağı ilin ortalarına kimi müşahidə olunacaq. İlin ortasından etibarən qiymətlər sabitləşməyə doğru gedəcək”.

# Ekspert DİM-in təşəbbüsünü alqışladı

## Magistratura pilləsində təhsil alan gənclərdə yazı, fikir ifadə etmə vərdişləri formalaşacaq



**Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə 2024-cü ildən magistraturaya qəbul qaydalarının dəyişdiriləcəyini bildirib. Onun sözlərinə görə, magistratura səviyyəsinə qəbul imtahanında növbəti ildə də məntiqi təfəkkürün yoxlanılması, xarici dil və informatika üzrə test bloklarında qapalı *(çoxseçimli)* və açıq tipli test tapşırıqlarından istifadə olunacaq.**

Bununla yanaşı, 2024-cü ildən hər bir xarici dil üzrə test blokuna dinləyib-anlama üzrə bir audiomətn əsasında qapalı tipli beş test tapşırığı da daxil ediləcək: ”Bakalavrlara kömək məqsədilə hazırlanmış audiomətnlərin nümunələri DİM-in rəsmi internet səhifəsində yerləşdirilib. Bu ildən etibarən xarici dil bloku üzrə yazı və danışıq bacarıqlarının yoxlanılması da nəzərdə tutulur”.

**Magistraturaya qəbul prosesində tətbiq ediləcək dəyişikliyi ”Şərq”ə dəyərləndirən təhsil eksperti Kamran Əsədov bildirib ki, proses yalnız xarici dil fənninə yox, eyni zamanda, gələcəkdə Azərbaycan dili fənni ilə bağlı da tətbiq edilməlidir:** ”Azərbaycan təhsil sistemi 1992-ci ildən etibarən test üsulu ilə qəbul planı həyata keçirir. İndi bizim şagirdlərimiz ali məktəblərə qəbul olmaq üçün test imtahanından istifadə edir. Aydındır ki, bu üsul əzbərçilik üzərində qurulub. Bu ciddi bir problemdir”.

**Təhsil eksperti hazırda magistraturaya qəbul olan şəxslərin sərbəst yazı qabiliyyətinə, fikir ifadə etmə bacarığına o qədər də malik olmadığını diqqətə çatdırıb:** ”Onların əldə etdikləri informasiyalar əzbərçilik üzərində qurulub. Ona görə bu gün ən ciddi problemimiz onlarda yazı, fikir ifadə etmə vərdişlərini formalaşdırmaqdır”.

*K.Əsədov magistraturaya qəbul qaydalarında tətbiq ediləcək yeniliyi kifayət qədər müsbət qarşıladığını söyləyib və səbəbini açıqlayıb:* ”Nəzərə alaq ki, bizim magistratura pilləsində təhsil alan gənclərimiz elmi məqalələrini xaricdə dərc etdirməlidir. Onlar yalnız hər hansısa qrammatik qaydanı, sözləri əzbərləməklə buna nail ola bilməzlər. Yazı vərdişləri onlarda yeni bacarıqları ortaya çıxaracaq. Beləcə bizim magistraturaya və gələcəkdə doktoranturaya qəbul olacaq, eyni zamanda, elmlə məşğul olan peşəkar gənclərimizin prosesə qoşulmağına imkan verəcək”.

**Günəş Mərd**



# Qazaxıstanı türk yolundan döndərmək istəyən güclər görünür

## Etiraz aksiyaları və onun nəticələri qazax xalqının xeyrinə nəticələnməyəcək

**Qazaxıstanda yaşanan son olayların Azərbaycan və Türkiyənin diqqət mərkəzində olması təbiidir. Çünki Qazaxıstan Türk Dövlətləri Təşkilatının əsas üzvlərindən biri sayılmaqla yanaşı, həm də real türk birliyinin yaranmasında Orta Asiyanın digər respublikaları ilə müqayisədə daha çox maraqlı olması ilə diqqət çəkir.**

Bu ölkə soykök, milli mənsubiyyəti etibarilə bizə ən yaxın ölkələrdən sayılır. Son 30 ildə Qazaxıstan Azərbaycana qarşı hər zaman isti münasibət bəsləyən bir ölkə kimi digərlərindən fərqlənib. Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə son qoyulması prosesində Qazaxıstan birmənalı olaraq Azərbaycanın yanında olub. Qeyd olunan məsələlərin hamısında Qazaxıstanın qurucu lideri və birinci prezidenti Nursultan Nazarbayevin rolu və xidmətləri danılmazdır. O səbəbdən dost və qardaş ölkədə cərəyan edən prosesləri yaxından, həm də narahatlıqla izləməyimiz də anlaşılandır.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov ”Şərq”ə deyib ki, sosial-iqtisadi tələblərlə başlayan, sonradan siyasi şüarlarla əvəzlənən, eyni zamanda xaotik, dağıdıcı prosesə çevrilən etiraz aksiyalarından narahatlıq keçirməmək mümkünsüzdür.** Partiya rəhbərinin sözlərinə görə, zorakılıqla, yanğınlarla və toqquşmalarla müşayiət olunan aksiyalar dövlətçiliyə, milli müstəqilliyə, suverenliyə zərər verəcək istiqamətə yönəlir: ”Çox istərdik ki, qardaş ölkədə iğtişaşlar dramatik hal almadan tezliklə başa çatsın. Çünki hədəfləri və tələbləri tez-tez dəyişən idarəolunmaz kütlənin dağıdıcı enerjisi sonda ya dövlətçiliyin tamamən süqutuna gətirib çıxara, ya da Qazaxıstanın kənar qüvvələrdən, qonşuluqdakı supergüclərdən - Çin və Rusiyadan asılı vəziyyətə düşməsi ilə nəticələnə bilər. Həmçinin, baş verənlər Putinin Belarus kimi Qazaxıstanı da Rusiyadan asılı vəziyyətə salması ilə yekunlaşar. Qazaxıstanda hökumətin istefaya göndərilməsinə, Almatıda prezident iqamətgahının, digər inzibati binaların yandırılmasına sevinmək təəssüf hissi doğurur. Məsələyə bu qədər dar çərçivədən yanaşmaq heç də sağlam siyasi təfəkkürün əlaməti deyil. Əgər kənar qüvvələr Qazaxıstanda baş verən hadisələrə bu və ya digər şəkildə müdaxilə etməyə, prosesləri öz geosiyasi maraqlarına uyğun məcraya yönəltməyə başlasalar, etiraz aksiyaları heç də qazax xalqının xeyrinə nəticələnməyəcək. Başa düşməliyik ki, son illərdə türk birliyi istiqamətində olduqca əhəmiyyətli addımlar atan Qazaxıstan kimi bir ölkəni tutduğu hazırkı yolundan döndərmək istəyən, onu ”satelit” ölkə halına gətirmək istəyən böyük güclər var. Nazarbayevin türk birliyinə inteqrasiya istiqamətində atdığı addımlar bu ölkənin böyük qonşularını heç də məmnun etmirdi. Onlar Qazaxıstanın Qərbyönlü və Turan birliyinə hədəflənmiş kursunu əngəlləmək üçün daim mümkün yollar axtarır, uyğun məqam gözləyirdilər”.

**Ə.Hüseynov vurğulayıb ki, son günlər Qazaxıstanda baş verən proseslər qonşuların - Çin və Rusiyanın geosiyasi, geoiqtisadi maraqlarını gerçəkləşdirmələri üçün əlverişli fürsət kimi görünür:** ”Qazaxıstanın inkişaf etmiş güclü və demokratik bir türk dövləti kimi beynəlxalq arenada söz sahibinə çevrilməsi Azərbaycanın da maraqlarına uyğundur. Proseslərə məhz bu yöndən yanaşmalıyıq və ilk növbədə dost ölkənin sabitliyinə önəm verməliyik. Qardaş qazax xalqı gerçəkdən də sülh və əmin-amanlıq şəraitində, rifah içində yaşamağa layiq xalqdır. Həm hakimiyyətin, həm də qazax xalqının sağlam düşüncəyə əsaslanaraq kompromisə gəlməsi son nəticədə Qazaxıstanın qalib gəlməsi deməkdir. Ümid edirik ki, dost və qardaş ölkədə asayiş ən qısa müddətdə bərqərar olacaq”.

**İsmayıl Qocayev**

# Dava Nursultan davası idi

## 36 ildir Qazaxıstana diş qıcayırdılar



**Qazaxıstanda qazın bahalaşması ilə bağlı yanvarın 2-dən davam edən etiraz aksiyaları səngiməyib. Prezident Qasım-Jomart Tokayevin müraciəti əsasında Qazaxıstana daxil olmuş Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı qüvvələri də etirazları tamamilə söndürə bilməyib. Almatı şəhərində baş vermiş iğtişaşlarda hüquq-mühafizə orqanlarının 12 əməkdaşı öldürülüb. Etirazçılar beş teleyayımçının ofisinə hücum ediblər. Şəhər komendantlığının açıqlamasına görə, 353 əməkdaş müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Bundan başqa, küçədə başı kəsilmiş bir kişinin meyiti aşkarlanıb. Qazaxıstanda pərakəndə ticarət obyektlərinə 60 milyon dollar ziyan dəydiyi deyilir. Hadisələrdən sonra Almatı şəhərində antiterror əməliyyatı keçirilib, hərbçilər arasında ölənlər də olub. Ölkənin Səhiyyə Nazirliyinin yaydığı məlumatda bildirilib ki, kütləvi qarşıdurmalar nəticəsində mindən çox insan yaralanıb.**





**İsmayıl Qocayev**

Prezident Tokayev ölkədə baş verən hadisələrin səbəblərinin araşdırılması və günahkarların məsuliyyətə cəlb olunması üçün xüsusi istintaq komitəsinin yaradılması barədə qərar verib. Tokayev, həmçinin Qazaxıstanda diplomatik nümayəndəliklərin, xarici investisiya subyektlərinin və xarici şirkətlərin bizneslərinin qorunması üzrə addımlar atmağı tapşırıb. Qazaxıstan fövqəladə vəziyyət rejiminin tətbiqinə görə xarici vətəndaşların ölkəyə girişini dayandırıb. Bu barədə Qazaxıstan XİN səfirliklərə məlumat göndərib. Qeyd edək ki, qaz qiymətlərinin artımına əhalinin kəskin etirazları səbəbindən ötən gün Qazaxıstanın bir neçə şəhər və vilayətində fövqəladə vəziyyət rejimi elan edilib. Prezident kütləvi etirazlarla əlaqədar olaraq iki gün ərzində iki dəfə əhaliyə müraciət edib. Bildirib ki, bu gündən Qazaxıstan Təhlükəsizlik Şurasına özü başçılıq edəcək. Bununla da Tokayev 1995-ci ildən bu vəzifəni icra edən ölkənin ilk prezidenti Nursultan Nazarbayevi işindən kənarlaşdırıb. Tokayev vurğulayıb ki, Qazaxıstan paytaxtında, xalqın yanında qalacaq. Etiraz edənləri "terrorçu" adlandıran Prezident xalqın onu dəstəkləyəcəyinə əmin olduğunu bildirib.

Tokayev etiraz aksiyaları fonunda yaxın müddətdə yeni təkliflər paketi ilə çıxış edəcəyini deyib. Türkiyənin sabiq baş naziri, hakim Ədalət və İnkişaf Partiyasının sədr müavini Binəli Yıldırım tviter səhifəsində "Qazaxıstana hər cür dəstək verməyə hazır" olduqlarını yazıb. Yıldırım bildirib ki, rəsmi Ankara Qazaxıstanda baş verən hadisələrin ölkənin sülh və sabitliyinə zərər vermədən başa çatmasını arzulayır: "Qazaxıstanla güclü müttəfiqliyimizi nəzərə çatdırmaq istəyirik. Hadisələrdə həlak olan qardaşlarımıza Allahdan rəhmət, yaralılara şəfa diləyirik".

Türk Dövlətləri Təşkilatı da Qazaxıstana dəstək bəyanatı yayıb. Bəyanatda türk respublikalarının Qazaxıstanla həmrəy olduqları bəyan edilib: "Qazaxıstanda sülh və sabitliyə verdiyimiz önəmi vurğulayır və üzv ölkəmiz Qazaxıstanla güclü həmrəyliyimizi ifadə edirik. Qardaş qazax xalqının sağlam düşüncəsinə və normal vəziyyətə qayıdış arzusuna güvənirik. Qazaxıstan rəsmilərinin sülhsevər şəkildə gərginliyin arxada qoyulması, sabitlik və əmin-amanlığın bərpasına qadir olduğuna inanırıq. Qazaxıstan hökumətinə və xalqına ehtiyac duya biləcəyi dəstəyi verməyə hazır olduğumuzu bəyan edirik". Belarus Prezidenti Aleksandr Lukaşenko isə belaruslular adından Qazaxıstandakı etirazçılara səslənib. Lukaşenko bildirib ki, hay-küy salmaq, qışqırmaq lazım deyil, danışıq aparmaq lazımdır: "Ortaya çıxan anlaşılmazlığı aradan qaldırmaq üçün, loru dildə desək, gedib diz çökməli və hərbçilərdən üzr istəməlidirlər. Daha sonra isə hakimiyyətlə, Tokayevlə masa arxasına oturmaq lazımdır". Onun sözlərinə görə, bu hadisələr Belarus üçün də dərs olub: "Biz başa düşdük ki, bu bizim də başımıza gələ bilərdi. Məsələ onda deyil ki, biz dinc belaruslularıq. Belarusdakı məsələləri onsuz da belaruslular həll etməyəcəkdi".

Türkiyənin terror və təhlükəsizlik üzrə eksperti Abdullah Ağar deyib ki, türk dünyası Qazaxıstandakı vəziyyətin normallaşması üçün müəyyən addımlar atılmaqda gecikdi. Ekspertin sözlərinə görə, Qazaxıstanda zorakılıqla müşayiət olunan nümayişlərin keçirilməsi Rusiya üçün yaxşı fürsətə çevrildi: "Ancaq bunun Rusiyanın taktikası olub-olmadığını, yaxud öz təbii axarı ilə istiqamətini dəyişdiyini Tokayevdən soruşmaq lazımdır. Türk dünyası Qazaxıstanda vəziyyətin stabilləşməsi üçün müəyyən təşəbbüslərlə çıxış edə bilərdi. Əfsuslar olsun ki, sözügedən istiqamətdə addımların atılmasında türk dünyası gecikdi. Doğrudur, Qazaxıstanın yanında olduğumuzla bağlı rəsmi açıqlama verildi, lakin gerçəklik odur ki, artıq KTMT hərbçiləri ordadır və bunun bir mənası var. Növbəti mərhələdə Qazaxıstan rəhbərliyinin sərgiləyəcəyi mövqe çox önəmlidir. Çünki sərgilənəcək mövqe həm Qazaxıstanın, həm də türk dünyasının gələcəyi baxımından ciddi təsirə malik olacaq".

### İndi qonşunun qoşunu çiçəklənən, parlayan bir ölkənin türk qapısını bağlayacaq

**Millət vəkili Etibar Əliyev Qazaxıstan hadisələri ilə bağlı vaxtilə baş vermiş bir tarixi hadisəni xatırladıb. Deputat deyib ki, Qorbaçov ölkəni elə çalxaladı ki, uzun illər qardaş qazax xalqı bundan əziyyət çəkdi:** "1986-cı ilin 17-18 dekabrında Qazaxıstanda Sovet hökumətinə qarşı kütləvi mitinqlər və xalq hərəkatı başlandı. Rəsmi versiyalara görə bu hərəkatın başlanmasının əsas səbəbi Qorbaçovun Respublikanın birinci katibi Dinməhəmməd Kunayevi vəzifəsindən kənarlaşdırması və yerinə heç vaxt Qazaxıstanda işləməmiş rus əsilli Gennadi Kolbinin onun yerinə təyinatı olub. Mitinq iştirakçılarının əsas tələbi yerli əhalinin nümayəndəsinin təyinatı ilə bağlı olmuşdu. Kütləvi mitinqlər xeyli sayda insan tələfatı ilə nəticələnmiş, minlərlə insan ağır xəsarət almışdı. Buna baxmayaraq Qorbaçov öz məkrli siyasətini həyata keçirmiş və Kolbini Qazaxıstana 1-ci katib təyin etmişdi. Kolbin 3 il bu ölkəyə rəhbərlik etdi. 36 ildən sonra yenə qış ayında Qazaxıstan çalxalandı. Qazaxıstan Prezidenti Tokayev Qazaxıstanda kütləvi etirazların yatırılmasına kömək üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına və Rusiyaya müraciət etdi. Üfüqdə 36 il bundan öncə yürüdülmüş siyasətin konturları görünür. 36 ildir bu ölkəyə diş qıcayırlar. Hardasa boşluq yaranan kimi işlərini görürlər. Baş verən xoşagəlməz hadisələr regionun çiçəklənən ölkələrindən biri olan Qazaxıstanın inkişafının, tərəqqisinin qarşısını almağa yönəlib. Hadisələri ürək ağrısı ilə izləyirik. Ümid edək ki, qazax xalqı dağıdıcılığın, qiyamın, xarici kəşfiyyatların məkrli məqsədlərin qurbanı deyil, məhz Qazaxıstanın tərəqqisinin, inkişafının, çiçəklənməsinin tərəfində dayanacaq".

**Millət vəkili Fazil Mustafa da bildirib ki, qonşunun qoşununun gəlməsi üçün əngəl olan Nursultan getməliydi. Deputatın sözlərinə görə, Qazaxıstanda Molla Nəsrəddinin yorğan davasına bənzəyən bir senari baş tutdu. Dava Nursultan davası idi:** "Nursuz, Sultansız Qazaxıstan lazım idi. Bütün informasiya vasitələrində dərhal tanıtımlar dəyişdi. Artıq xalqdan söhbət getmir. Təxribatçı, bandit, soyğunçulardan danışılır. Xalqın adından da kollektiv təhlükəsizlik qoşunlarını ölkəyə çağırdılar. Həm də xalqı qarətçilərdən, təxribatçılardan qorumaq üçün. Nə olacaq? Heç nə! Belarusa nə oldu ki? Qazaxıstan da bu təlatümdən sonra kənardan özünüzü inandırdığınız demokratiya qatarı kimi yarı Şərq, yarı Qərb relsləri üzərindən şütüyəcək. Bu ölkədə onsuz da Nursultanın iradəsi ilə Orta Asiya üçün mümkün olan demokratiya var idi. Ən azı addım-addım məqsədyönlü şəkildə gerçəkləşən qazax idealı vardı. Müstəqil qatar olmaq istəyən dövlətlərin xalqı camaat qafası ilə mühakimə yürüdəndə onun dövlətini də idarəsiz vaqon kimi başqa qatarlara qoşurlar. Nursuz, Sultansız Qazaxıstanın maye qazı da olacaq, yemək-içməyi də! Bəlkə də daha çox olacaq. Ancaq burada türklərin Məkkəsi kimi Nursultanın yaratdığı Türküstan şəhərinin ruhu Qazaxıstanın canından uçub gedəcək... Haraya? Əlbəttə Kosmodroma - Baykanura! Amma Bayka Nur qazax üçün əsla Sultan Nur olmayacaq!".

**Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Araz Aslanlının sözlərinə görə, təcrübə və təhlil göstərir ki, bu kimi proseslər adətən özbaşına olmur.** Analitikin fikrincə, kənar qüvvələrin, xüsusilə də böyük güclərin təşkilati, təhrikedici, alovlandırıcı rolu proseslərin başlaması və gedişatı baxımından önəmli olur: "Proseslər sadəcə "Qazax proletariatı"nın arzularından qaynaqlanmır. "Şimal", "Qərb" ya da "Şərq" küləyinin rolu da mütləqdir. İlk ağla gələn dövlət Rusiya olsa da, bu cür proseslərin uzunmüddətli olması adətən qonşu dövlətlər üçün daha böyük risklər yaratma potensialına sahibdir. Məsələn, bir komplo nəzəriyyəsinə görə Qərb Ukraynanı rahatlatmaq üçün Rusiyaya cənubda da cəbhə açmaq istəyir. Təxminən 2 ay öncə, Türk Zirvəsindən sonra bir neçə səbəbə görə bütün türk dövlətlərinin həm öz aralarındakı münasibətlərdə, həm də öz daxillərində diqqətli olmalarının vacibliyini yazmışdıq. Məhz həmin hadisədən sonra bir neçə problem yaşandı və yaşanmağa davam edir. Türk dünyasının gələcəyi üçün bu dövlətlərin mümkün qədər öz paytaxtlarından idarə olunmaları və mümkün qədər öz cəmiyyətlərinə əsaslanmaları vacibdir. Əks halda risklər daha da artacaq".







# Bakıda evdən 150 min dollarlıq qızıl oğurlanıb

**Binəqədi rayonunda yerləşən evlərdən birindən oğurluq edilib.**

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən "Şərq"ə verilən xəbərə görə, zərərçəkən ev sahibi polisə müraciət edərək 31 dekabr - 2 yanvar tarixləri arasında evdə olmadığı müddətdə naməlum şəxslər tərəfindən mənzildən içərisində 10 min manat nağd pul, 150 min dollarlıq qızıl-zinət əşyaları və 15 min manat dəyərində qol saatları olan seyfin oğurlandığını bildirib. Məlumat daxil olan kimi hadisəni törədən şəxslərin axtarışlarına başlanılıb. Daxili İşlər Nazirliyinin əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz əməliyyat-axtarış tədbiri nəticəsində qeyd olunan cinayət əməlini törətməkdə şübhəli bilinən əvvəllər məhkum olunmuş Zaqatala rayon sakinlərin Murad Allahverdiyev və Uveys Məmmədov saxlanılıblar. Onlar ifadələrində törətdikləri hadisəni etiraf ediblər.

Qeyd edək ki, bu şəxslərin oğurladıqları qızıl-zinət və digər əşyalar onlardan aşkar olunaraq maddi sübut kimi götürülüb.

Faktla bağlı Binəqədi RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. Əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Qazinin qazını, işığını kəsiblər

## Məhəmmədin pensiya sənədlərini düzəltmək üçün Bakıya gəlməyə pulu yoxdur



**30 il sonra ərazi bütövlüyünü bərpa edən Azərbaycan xalqı yaşadığı bu zəfər sevincini ən başda bu uğurda canını fəda edən şəhidlərinə, qazilərinə, veteranlarına borcludur. Ancaq onlara borclu olan təkcə xalq deyil, həm də dövlətdir.**

Dövlətin onlara qarşı xüsusi öhdəlikləri var. Lakin dəfələrlə müharibə iştirakçılarının bu barədə narazı olduqlarının şahidi oluruq. Onlardan biri də Tovuzun Girzan kənd sakini olan İkinci Qarabağ müharibəsi qazisi Məhəmməd Allahyarovdur. O, əlilliklə bağlı pensiya ala bilməməsindən, bunun üçün ona heç bir yardımın göstərilməməsindən şikayətlənir.

**Yaşadığı problemlə bağlı "Şərq"ə danışan Qazi Məhəmməd Allahyarov bildirib ki, onun maddi durumunun yetərsizliyi pensiya almaq üçün lazım olan sənədləri hazırlamasına və müvafiq orqanlara təqdim etməsinə belə imkan vermir:** "Mən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə Tərtər-Ağdərə istiqamətində iştirak etmişəm. Ağır kəllə-beyin travması keçirmişəm. Qaraciyərimdə də "Hepatit B" virusu aşkar olunub. Əlilliyə görə pensiyamı ala bilmirəm. 3-4 dəfə sənəd vermişəm, geri qaytarıblar. Xəstəlik haqqında şəhadətnaməm Papanində hazırdır. İndi maddi imkanım yoxdur ki, gəlim Bakıya o sənədləri götürüm Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə aparım".

**Qazi, həmçinin bildirib ki, borcunu ödəyə bilmədiyi üçün onun yaşadığı evə qaz və işığın verilişi dayandırılıb:**

"Mənə dəli diaqnozu qoyublar. Heç bir yerdə işə götürmürlər. İşığımı, qazımı kəsiblər. Atam da yataq xəstəsidir. 21 yaşım var, gəlib-gedənin əlinə baxıram.

Bu məsələni icra hakimiyyətinin başçısına, onun müavininə də bildirmişdim. Şəhid ailələri və qazilərlə bağlı məsələlərə baxan Oruc müəllimə də, kənd icra nümayəndəliyinə də bildirmişdim.

İcra başçısı mənə dedi ki, "narahat olma, elə edəcəm sənin işığın kəsilməsin". Daha sonra deyir ki, "mən 1200 manat maaş alan adamam. Uşağımın boğazından kəsim sənə necə verim?!".

*Məhəmməd Allahyarov ailəsinin heç bir gəlir yeri olmadığına görə dərmanlarını da ala bilmədiyini deyir:* "Mənim əmim də Birinci Qarabağ Müharibəsində şəhid olub. Özüm də indi bu vəziyyətdəyəm. Bizə indi nə bir maaş, nə başqa yardım gəlir. İstəyirəm ki, köməklik edilsin. Anama da bir iş verilsin. Məktəbdə süpürgəçi olsa da olar. Anam bü gün mənim iynəmi, dərmanımı ala bilmir".

**Sənan**

**Günəş Mərd**

**Qazaxıstanda yanvarın 2-də Janaozen və Aktau şəhərlərində maye qazın ikiqat bahalaşmasına qarşı başlayan etiraz aksiyaları hazırda davam edir. Artıq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sülhməramlı kontingenti Qazaxıstanda vəzifəsini icra etməyə başlayıb.**



# Qazaxıstan olaylarında Britaniya izi...

## "Britaniya üçün Asiya coğrafiyası mühümdür, dünya təbii sərvətlərinin əhəmiyyətli hissəsinin Asiyada cəmləşməsi bu qitənin strateji əhəmiyyətini artırır"

"RİA Novasti" agentliyi KTMT təşkilatının Qazaxıstana göndərəcəyi sülhməramlıların ölkədə qayda-qanunun yaradılmasında deyil, hərbi strukturların və dövlət əhəmiyyətli başqa obyektlərin mühafizəsində iştirak edəcəyini bildirib. KTMT-nin qərargahından isə quruma üzv dövlətlərin liderlərinin Qazaxıstana göndəriləcək sülhməramlıların tərkibini, strukturunu və sayını müəyyənləşdirəcəyi söylənilib. Xatırladaq ki, KTMT-yə Rusiya, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan və Tacikistan silahlı qüvvələrinin bölmələri daxildir.

**Siyasi şərhçi Aqşin Kərimov mövzunu "Şərq"ə şərh edərkən 2021-ci ilin dekabrında Rusiyadan gələn rəsmi açıqlamalara diqqət çəkib:** "Ard-arda verilən bəyanatları xatırlasaq, görərik ki, burada NATO-nun Şərqə doğru genişlənməsinin qəbuledilməz olduğu bildirilirdi. Hətta açıqlamalarda NATO-ya inteqrasiya edən postsovet ölkələrinin ünvanına təhdid səslənirdi. Görünür, Rusiyada olan kəşfiyyat məlumatlarında Qazaxıstanın da Şimali Atlantika Müqaviləsi Təşkilatına üz tutması məsələsi yer alırdı. Düzdür, Qazaxıstan KTMT-nin üzvüdür, amma NATO ilə münasibətlərə önəm verir və prioritetlərinə Qərblə əlaqələrin inkişafını daxil etmişdi. Qazaxıstanda anti-Qərb tezislərinin yox dərəcəsində olması, təbii ki, Rusiyanı da narahat edirdi".

*A.Kərimova görə, Qazaxıstan Mərkəzi Asiyaya açılan qapıda böyük potensiala malikdir və bu mənada hazırda Qərb, Çin eləcə də Rusiya onun qapılarına salınan "kilidi" açmaq uğrunda mübarizə aparırlar.*

Siyasi şərhçi KTMT qoşunlarının Qazaxıstana daxil olmasının NATO və Çin üçün də xəbərdarlıq olduğunu vurğulayıb və bununla da Kremlin "Mən Qazaxıstanı öz orbitimə çəkdim" mesajını verdiyini söyləyib: "Bundan sonrakı hadisələrdə qarşıdurmalar, iğtişaşlar mümkündür, ancaq hələlik yaranmış sabit vəziyyət KTMT-nin "sülhpərvər" missiyasına dair görüntüləri əks etdirir".

**A.Kərimov Qazaxıstandakı proseslərin gedişatından danışarkən bu xüsusda Britaniya amilinə toxunub:** "Obyektivi bir az da böyütsək, burda Britaniyanın başlatdığı "Qlobal Britaniya" strateji xəttinin izlərini görə bilərik. Çünki Britaniya üçün Asiya coğrafiyası mühümdür, ümumiyyətlə, dünya təbii sərvətlərinin əhəmiyyətli hissəsinin Asiyada cəmləşməsi bu qitənin strateji əhəmiyyətini artırır. O resurslar uğrunda gələcək savaşlarda özünü qorumaq üçün Asiya regionunu öz "qara dəliyinə" çəkir. Və hazırda bir çox siyasi müşahidəçinin "Turan" kimi qələmə verdiyi Türk Dünyası Dövlətləri Təşkilatı da Britaniyanın planıdır".

Onun sözlərinə görə, hazırda Britaniya Asiyada güc formalaşdırır və bununla da özünə qarşı bufer zona yaradır: "Qazaxıstan da bu gedişdə mühüm çəki qazanır. Bu mənada baş verənlərin siyasi mayasında Britaniya amilini xüsusi diqqətdə saxlamaq lazımdır".

# Ankara Bakı ilə birlikdə hərəkət edir

## Əvvəl-axır Türkiyə-Ermənistan münasibətləri normallaşmalıdır



“Bölgədə sülh, əmin-amanlıq yaratmaq üçün İrəvan tərəfi üzərinə düşən öhdəliyə qeyd-şərtsiz əməl etməlidir”

**Türkiyə və Ermənistan münasibətlərinin normallaşması üzrə təyin edilən xüsusi nümayəndələrin ilk görüşü yanvarın 14-də Moskvada keçiriləcək. Bu barədə Ermənistanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Vahan Hunanyan deyib.**

Qeyd edək ki, Türkiyə tərəfi ölkənin ABŞ-dakı sabiq səfiri Sərdar Kılıçı, Ermənistan isə parlamentin sədr müavini Ruben Rubinyanı xüsusi nümayəndə təyin edib. Rusiya Xarici işlər naziri Sergey Lavrov da türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdə deyib ki, Moskva Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması səylərini dəstəkləyir.

**İki ölkə arasında əməkdaşlıq mühitinin formalaşması ilə bağlı ”Şərq”ə danışan millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə ”Şərq”ə deyib ki, əslində Türkiyə-Ermənistan əlaqələri İrəvan-Bakı arasındakı proseslərin tərkib hissəsidir.** Deputat bildirib ki, əgər Ermənistan normallaşma prosesində müsbət addım atarsa, Türkiyə buna adekvat cavab verəcək: ”Ermənistanın gələcək inkişafı üçün Türkiyə və Azərbaycanla əməkdaşlıq vacib şərtlərdən biridir. Ankara rəsmi Bakı ilə birlikdə hərəkət edərək Ermənistanla əməkdaşlığa yönəlik addımlar atır. Ermənistan da adekvat cavab verməlidir. Eyni zamanda Azərbaycanla sərhədlərin müəyyənləşməsi, sülh sazişinin imzalanması istiqamətində ciddi və əməli davranış sergiləməlidir. Əvvəl-axır Türkiyə-Ermənistan münasibətləri normallaşmalıdır. Qarabağ münaqişəsi bitib, bölgədə yeni reallıq formalaşıb. Ermənistanın Baş naziri Nikol Paşinyan da əməkdaşlıqla bağlı nisbətən pozitiv açıqlamalar verməkdədir. Hazırda müzakirə olunan əsas məsələ üç ölkənin imza atdığı üçtərəfli bəyanatın icrasıdır. Bölgədə sülh, əmin-amanlıq yaratmaq üçün İrəvan tərəfi üzərinə düşən öhdəliyə qeyd-şərtsiz əməl etməlidir. Rusiya Ermənistanın əsas müttəfiqi və İrəvana güclü təsir mexanizminə sahib ölkədir. Bu baxımdan Moskvanın Ermənistan-Türkiyə əlaqələrinin normallaşması prosesində rol oynaması vacibdir. Moskva İrəvanı istənilən istiqamətdə addım atmağa vadar edə bilər”.

**İsmayıl Qocayev**

# Tokayevin qorxusu əsassız deyildi

## Güc nisbəti dəyişdikcə, polis də, ordu da xalqın tərəfinə keçir

**”Qazaxıstan Prezidenti Tokayevin Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciətinin sadə səbəbi var. O, Qazaxıstan polisinin və ordusunun etirazları yatırtmağa gücü çatmayacağından, ən pis halda isə etirazçıların tərəfinə keçəcəyindən qorxduğu üçün Moskvaya müraciət etdi”.**

Bu barədə ”Şərq”ə politoloq Elxan Şahinoğlu bildirib. O qeyd edib ki, ordu və polis həmişə güclünün yanında yer alır: ”Güclər arasında nisbət dəyişəndə ordu və polis düşünməyə başlayır və verilən əmrləri dəyişən nisbətə görə icra edir. Uzaq və yaxın tarixdə baş verən inqilablar da bundan xəbər verir. Tokayevin qorxusu əsassız deyildi, bəzi yerlərdə polis işçiləri etirazçılara qoşulmuşdu və bu prosesin getdikcə genişlənməsi ehtimalı yüksək idi. Tokayev hakimiyyəti qorumaq üçün bu vəziyyətdə Moskvadan yardım istədi. Ancaq bu yardım və hadisələrin bundan sonrakı inkişafı Qazaxıstan üçün yeni təhlükələr yaradacaq”.

**Günəş Mərd**

# Baxçalıya "Turkovac" peyvəndi vuruldu

## Partiya sədri xalqa da çağırış edib



**Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı ”Turkovac” peyvəndini vurdurduğunu açıqlayıb.**

”Şərq” xəbər verir ki, bu barədə partiya sədri ”Twitter” hesabında paylaşım edib.

”Yerli və milli istehsalımız ”Turkovac” peyvəndini vurdurdum. Səhiyyə Nazirliyimizin xəbərdarlıqlarını nəzərə alaraq epidemiyadan ən qısa zamanda xilas olacağımıza ümid edirəm və bütün xalqımızı ”Turkovac” peyvəndi vurdurmağa dəvət edirəm”.

D.Baxçalı peyvənd olunduğu anların fotolarını da paylaşıb.

**Xanlar**



# İctimai nəqliyyatda gediş haqqı artırılır?

## Hələ ki, heç bir qurum Tarif Şurasına müraciət etməyib

**Sücaət Mehtili**

**Azərbaycanda un və çörəyin qiymətindəki bahalaşmadan sonra ictimai nəqliyyatda da gediş haqlarının artacağı ehtimalı irəli sürülüb. Bu barədə feysbukda müəyyən iddia və ehtimallar yayılıb.**

*Məsələyə aydınlıq gətirən Bakı Metropoliteni QSC mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov ”Şərq”ə bildirib ki, Bakı Metropoliteni sosial yönümlü nəqliyyat infrastrukturu olduğundan daim dövlətin dəstək və qayğısı ilə əhatə olunur:* ”Hətta pandemiya şəraitində respublika üzrə elan edilmiş xüsusi karantin rejiminin davam etdiyi uzun müddət ərzində də Bakı metropoliteninin işlək vəziyyətdə saxlanılması ilə bağlı zəruri xərclər qarşılanıb. Bunun üçün dövlət hər zaman ”Bakı Metropoliteni” QSC-yə maliyyə dəstəyi göstərir. Metropolitendə sərnişindaşıma xidmətinin göstərilməsi Nazirlər Kabinetinin 28.09.2005-ci il tarixli 178 №-li Qərarı ilə qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən xidmətlərin siyahısına daxil olduğundan bu ictimai nəqliyyatda gediş haqqı tarifi üzrə tənzimlənmə ”Bakı Metropoliteni” QSC tərəfindən aparılmır. Bununla bağlı hələlik aidiyyəti üzrə hər hansı bir müraciət ünvanlanmayıb”.

**Bakı Nəqliyyat Agentliyinin (BNA) mətbuat katibi Mais Ağayev isə qeyd edib ki, hazırda Bakı şəhərində müntəzəm sərnişindaşımalarda gediş haqqının dəyişməsi, tənzimlənməsi ilə bağlı bütün məsələləri Tarif Şurası həyata keçirir:** ”BNA tərəfindən indiki məqamda belə bir mövzu müzakirə olunmur. BNA qiymət tənzimləməsi barədə Tarif Şurasına hər hansı müraciət etməyib”.



# Qiyməti qalxmamalıydı

## Çörək Azərbaycan xalqı üçün Qarabağın Şuşası dəyərindədir

**Məlahət Rzayeva**

**”Çörək neçəyədi?”, ”Çörəyi neçəyə aldınız?”. Hazırda hamının cavab axtardığı məhz bu suallardır. Cavab var. Yetər ki, mağazaya, marketə daxil olub, çörəyə əl uzadasan. Amma suallar çörəyin müxtəlif qiymətlərə satışa çıxarılmasından qaynaqlanır. Çəkidə fərqlilik qiymətdə özünü göstərir. Ən əsas sualsa, ”niyə?”dir: çörəyin qiyməti niyə qalxdı? Mütəxəssislər, iqtisadçılar müxtəlif cavablar verir. Millət vəkilləri də müzakirələrə qoşulub.**

Əvvəlcə, İqtisadiyyat Nazirliyinin Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin açıqlamasına baxaq. Sözügedən qurum un və çörək istehsalçıları ilə qiymətin maksimal yuxarı həddi müəyyənləşdirildiyinə dair dünən açıqlama yaydı. Açıqlamada bildirilir ki, son dövrdə dünyada baş verən iqtisadi proseslərin və COVİD-19 pandemiyasının təsirləri, 2021-ci il ərzində dünya bazarlarında ərzaqlıq buğdaya tələbin artması və buğda istehsalçısı olan ölkələrin daxili bazarı qorumaq məqsədilə həyata keçirdiyi müxtəlif proteksionist tədbirlər fonunda ərzaqlıq buğdanın qiyməti kəskin artıb. Əlavə olaraq, ən böyük ərzaqlıq buğda istehsalçılarından biri və Azərbaycana ixrac edilən buğdanın əsas mənbə ölkəsi olan Rusiya Federasiyasının 2021-ci ilin fevral ayından yüksək ixrac rüsumları tətbiq etməsi səbəbindən ölkəmizə idxal olunan ərzaqlıq buğdanın qiymətində 2019-cu illə müqayisədə təxminən 58 faiz bahalaşma baş verib. Vurğulamaq vacibdir ki, Azərbaycanda ərzaqlıq buğdanın, unun və çörəyin qiyməti tənzimlənən tariflər əsasında deyil, bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq tələb-təklif əsasında formalaşır. 2021-ci il ərzində ərzaqlıq buğdanın dünya üzrə kəskin bahalaşmasının Azərbaycana təsirinin azaldılması məqsədi ilə hökumət tərəfindən ayrılan böyük həcmdə subsidiyalar hesabına buğda və unun qiymətlərinin real qiymətlərdən aşağı saxlanılması təmin olunub. Təbii olaraq, subsidiyalar hesabına bu qiymətlərin uzunmüddətli dövrdə liberal iqtisadi tələblərə zidd olaraq qeyri-real səviyyədə saxlanılması mümkün deyildir. Nəticədə cari ilin əvvəlindən etibarən ərzaqlıq buğda tədarükü və un istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri tərəfindən unun qiyməti ərzaqlıq buğdanın hazırkı idxal qiymətinə uyğunlaşdırılıb. Satış bazarında qiymət manipulyasiyalarına yol verilməməsi məqsədi ilə preventiv tədbir olaraq, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bir sıra iri ərzaqlıq buğda idxalçıları, həmçinin un və çörək istehsalçıları ilə müzakirələr aparıb və prosesin nəzarətdə saxlanılması təmin edilib. İdxal qiymətləri və emal xərcləri nəzərə alınmaqla, hazırda bu məhsula real qiymət formalaşıb, un və çörək istehsalçıları ilə qiymətin maksimal yuxarı həddi müəyyənləşdirilib: 50 kq-lıq bir kisə unun topdansatış qiyməti - 35,9 manat, 500 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti - 50 qəpik, 650 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti - 65 qəpik. Dövlət Xidməti qiymət hədlərinə əməl olunması üzrə ciddi nəzarət tədbirlərini davam etdirir. İlk günlərin monitorinqlərinin nəticələrinə əsasən, unun topdansatış qiyməti 35,4- 35,9 manat arasında dəyişir. Hazırda Dövlət Xidməti un istehsalçılarının topdansatış mərkəzləri və məntəqələri, iş vaxtları və topdansatış qiymətlərinə dair mütəmadi şəkildə yenilənəcək məlumat bazası hazırlayır və bu gün ərzində ictimaiyyətə açıqlanacaqdır. İstehlakçılar un və çörək bazarında qiymət manipulyasiyası halları ilə rastlaşdıqda, həmçinin əlaqəli məlumat almaq məqsədi ilə Dövlət Xidmətinə müraciət edə bilər: əlaqə telefonu: (+99412)-599-76-00.

İqtisadiyyat naziri Mikayıl Cabbarov da un və çörəyin bahalaşmasıyla bağlı açıqlama verib. Nazir deyib ki, gələcəkdə qiymət artımlarının təsirinin minimallaşdırılmasının yeganə yolu ölkə daxilində ərzaq məhsullarının istehsalının tam dəyər zəncirini formalaşdırmaq, 100 faizlik lokalizasiyaya nail olmaqdır. Onun sözlərinə görə, idxal komponentlərindən asılı olan məhsullar üzrə idxalı əvəz edəcək istehsal sahələrinin yaradılması üçün əlverişli imkanlar mövcuddur: ”Bu istiqamətdə kiçik və orta biznesin inkişafına dövlət dəstəyi mexanizminin səmərəsinin artırılması bu cür sahibkarlıq subyektlərinin, xüsusilə gənc sahibkarların məşğulluqda iştirak payının daha da yüksəldilməsinə gətirəcək. Hökumətin qarşıdakı dövrdə də əsas hədəflərindən biri yüksək əlavə dəyər yaradan emal sənayesinin sürətli inkişafıdır. Regionların spesifikası nəzərə alınmaqla, məhsul istehsalı və emalı üzrə ixtisaslaşmanın dərinləşdirilməsi hədəflənib. Regionlarda işləməyən və ya zərərlə işləyən istehsal müəssisələrinin yenidən qurulması, sağlamlaşdırılması və özəlləşdirilməsinin sürətləndirilməsi nəzərdə tutulur. Bütövlükdə, yüksək əlavə dəyər yaradan məhsul istehsalı və xidmət sahələrinin inkişaf etdirilməsi üçün investisiya təşviqi mexanizmlərindən geniş istifadə ediləcəkdir”. Nazir bildirib ki, Azərbaycan hökuməti qiymət artımlarının təsirlərini minimuma endirmək üçün bütün müvafiq addımları atır və 2022-ci ilin dövlət büdcəsi əhalinin gəlirlərinin artırılması komponentini nəzərə almaqla formalaşdırılıb: ”Hesab edirik ki, bu, qiymət artımlarını qarşılamaq üçün müəyyən dəstək olacaq. Müsbət məqam ondan ibarətdir ki, beynəlxalq təşkilatların 2022-ci il üzrə əmtəə və ərzaq qiymətləri indeksinə dair proqnozlarında 2021-ci illə müqayisədə nisbətən azalma, əsas ticarət tərəfdaşı olan ölkələrdə istehlak qiymətləri indeksinin 2021-ci illə müqayisədə qismən aşağı proqnozları mövcuddur”.

Açıqlamalar öz yerində. Reallıq isə budur ki, hazırda əhali 500 qramlıq çörəyi 50 qəpiyə alır. Hansı ki, 2 gün əvvələdək çəkisi 600 qramdan artıq olan adi zavod çörəyi (”Binə”, ”Bakıxanov”, ”Nur” və sair) 50 qəpik idi. Deməli, çörəyin qiymətində əsaslı artım baş verib artıq. Hökumət isə hansısa addımlar atmağı düşünür. Qeyd edilən addımlar, görüləcək tədbirlər, idxaldan asılılığı azaltmaq, taxıl istehsalını artırmaq, filan... bunlar perspektiv planlardır. Nə vaxt reallaşacaq, dəqiq bilinmir. Bəs bu gün, əhalinin çörəyə olan tələbatını onun aylıq gəlirlərinə uyğunlaşdırmaq üçün hansı tədbir görülməlidir? Və ümumiyyətlə, bu vəziyyətdən təcili çıxış yolu varmı?

**İqtisadçı Fuad İbrahimov ”Şərq”ə açıqlamasında çörəyi obrazlaşdıraraq ”Qarabağın Şuşası” adlandırdı:**

- Hamımız bilirik ki, Azərbaycan xalqı üçün çörək Vətən qədər müqəddəsdir. Hətta belə ifadə də var ki, çörək Qurandan irəlidir. Xalqımız çörəyi həmişə müqəddəs nemət bilib, yerə düşən çörəyi qaldırıb öpüb gözünün üstünə qoymağı demək olar, hər bir valideyn övladına tövsiyə edir. Tarix boyu da bu, belə olub. Çörək, Azərbaycan xalqı üçün, obrazlı desəm, Qarabağın Şuşası dəyərindədir. Ən çox tələbat olan, hətta qida rasionunda ən əsas ərzaq da çörəkdir. Bu, inkaredilməz faktdır. Ailə var, 5-6 üzvdən ibarətdir. Gündəlik heç olmasa 5 çörək alırdı. İndi bu ailələrin vəziyyətini təsəvvür etmək çətin deyil, həm də maddi baxımdan çətin təsəvvür olunur. Çörəyin qiyməti indiki vaxtda qalxmamalıydı. Qonşu dövlətlərdəki vəziyyəti nəzərə almaq baxımından da çörəyin qiymətinin qalxması nə vaxta, nə zamana uyğun gəlir. Ətin, dizel yanacağının qiyməti qalxsın, lap işığın, qazın qiyməti qalxsın, belə ağrılı reaksiya olmur, amma çörəkdə qiymət artımına əhali ağrılı reaksiya verir. İndiki həssas məqamda çörəyin qiymətinin qalxması yaxşı hal deyil.

**İqtisadçı un və çörəkdəki qiymət artımı ilə bağlı hökumətin irəli sürdüyü səbəbləri təkrarlamaq niyyətində olmadığını dedi:**

- Səbəblər göstərilir, amma hesab edirəm ki, bu səbəblərin heç də hamısı əsaslı deyil. Bəli, dünya bazarında bahalaşma var. Amma məgər biz elə indi, bu saat dünya bazarındakı taxıl ixracatçılarından taxıl alırıq? Bəs bizim taxıl ehtiyatımız hardadı? Taxıl ehtiyatı olmalıydı axı. Azərbaycan indiyədək daxili istehsalını, ərzaqlıq buğda istehsalını təmin etsəydi, dünya bazarından asılılığı olmayacaqdı, idxal amili aradan qalxacaqdı. Ola bilsin, əkin üçün hansısa komponentlərin, dərmanlar və sair idxalına ehtiyac olsun, amma bu, ümumi məsələyə cüzi təsir göstərəcəkdi. İdxaldan əhəmiyyətli dərəcədə asılı olduğumuza görə dünya bazarındakı qiymət artımı bizə təsir edir. İkinci məsələ, subsidiyaların dayandırılmasıdır. İndiki vaxtda buna gedilməməlidir. Subsidiyaların dayandırılmasını onunla əsaslandırmağa çalışırlar ki, Nazirlər Kabinetinin məlum qərarı qüvvədən düşüb. Tutalım qərarın vaxtı bitib, başa çatıb. Bunu yeniləmək bu qədərmi çətindir? 2022-ci il üçün də subsidiyaların verilməsinin davam etdiriləcəyinə dair qərar vermək olar. Dövlət ona görə subsidiya ayırır ki, sahibkar ziyana düşməsin. Deyək ki, dünya bazarında ərzaqlıq buğdanın qiymətinin qalxması ilə 650 qramlıq çörəyin maya dəyəri 60-65 qəpik olacaqsa, bunun 10-15 qəpiyini dövlət öz hesabına qarşılayır ki, qiymət artımı baş verməsin. Əhali 650 qramlıq çörəyi yenə də 50 qəpiyə ala bilsin. Amma sibsidiyalar dayandırıldığından istehsalçı məcburdur özü qiymət təyin etsin, o da maya dəyərinə uyğun qiymət təyin edir. Qiymət artımının qarşısının alınmasının bir yolu da budur ki, bazarda bolluq olsun. Sağlam rəqabət mühiti formalaşsın. Sahibkarlar bazara daha ucuz, fərqli qiymətlərlə məhsul çıxara bilsinlər. ”Bazar iqtisadiyyatıdır”, deyib, yaxanı kənara çəkmək də düzgün deyil. Ümumiyyətlə, strateji məhsulların qiyməti ilə bağlı hökumət müdaxilə etməlidir.

“Subsidiyaların ödənməsi bərpa edilməlidir, bu, dövlət büdcəsi üçün böyük rəqəm olmayacaq”





**İqtisadçı çörəyin qiymətində ucuzlaşmaya nail olmaq üçün konkret təklif irəli sürdü:**

- Subsidiyaların ödənməsi bərpa edilməlidir, bu, dövlət büdcəsi üçün böyük rəqəm olmayacaq. Bizim yerli istehsalımız da var axı. Az və ya çox, hər halda var. Onu nəzərə alsaq, yerdə qalan tələbat üçün də subsidiya verilsə, çörəyin qiymətini tənzimləmək mümkündür. Yerli istehsalçı məhsulunu niyə dünya bazarındakı qiymətə satmalıdır, anlamıram. Digər ərzaq məhsullarının qiymətindəki artımı dayandırmaq lazımdır. Çörəyin qiyməti qalxan kimi avtomatik qara çay, qənd, şəkər tozu, yumurta... bütün ərzaq məhsullarında qiymət artımı baş verir. Zəncirvari reaksiya gedir. Çörəyin, unun qiymətindəki artımın tomat pastasının qiymətinə nə aidiyyəti var? Digər məhsullar anbarlardan satışa çıxarılır. Anbarda toplanmış məhsulların qiymətində niyə artım baş verir? İqtisadiyyat Nazirliyi bu kimi hallara qarşı mübarizə aparmalıdır.

İqtisadçı qeyd etdi ki, qiymət artımının əsas səbəblərindən biri bazarda ”oyunçu” qıtlığıdır: - Bazarda nə qədər az ”oyunçu” olursa, qiymətlər bir o qədər çox qalxır. Bazarda 1-2 oyunçu var, öz aralarında razılığa gəlirlər ki, filan məhsulu bu qiymətdən aşağı satmayaq. Sahələri də öz aralarında bölüşdürürlər. Buna iqtisadiyyatda birinci dərəcəli diskriminasiya deyilir. Hesab edirəm ki, hökumət ciddi tədbir görməlidir.

# Tokayev qoşun çağırdı

## Qazaxıstanın suverenliyi bununla təhlükə altına düşdü



İsmayıl Qocayev

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin hərbi yardım istəyi üzərinə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının "sülhməramlı" qüvvələri ölkə ərazisinə daxil olub.**

KTMT Şurasının sədri, Ermənistanın Baş naziri Nikol Paşinyan deyib ki, Tokayevin müraciətinə əsasən, tərkibinə Rusiya, Belarus, Ermənistan, Tacikistan və Qırğızıstan silahlı qüvvələrinin birləşmələri daxil olan təşkilatın "sülhməramlı" kontingenti Qazaxıstana girib. Tarixin ironiyasına baxın ki, KTMT qoşunlarının Qazaxıstana daxil olması qərarını hazırda bu quruma sədrlik edən Ermənistanın Baş naziri Nikol Paşinyan açıqlayıb. Yəni Qazaxıstan kimi bir türk dövlətinə "Paşinyanın qoşun yeritməsi" gerçəkləşib. Fakt budur ki, təşkilata Rusiya, Belarus, Qırğızıstan, Tacikistan, Ermənistan silahlı qüvvələrinin bölmələri daxil olsa da, qurum Moskvanın diktəsi ilə idarə olunur. Bu baxımdan Rusiyanın Qazaxıstanda mütləq söz sahibinə çevriləcəyini vurğulamaq mümkündür. Rusiya Xarici İşlər Nazirliyinin (XİN) yaydığı bəyanatda bildirilib ki, Moskva Qazaxıstanın hüquq-mühafizə orqanları tərəfindən antiterror əməliyyatının keçirilməsini asanlaşdırmaq, dinc əhalinin təhlükəsizliyini təmin etmək üçün öz müttəfiqləri ilə məsləhətləşmələri davam etdirəcək. Rusiya XİN Qazaxıstanda baş verən hadisələri dövlətin təhlükəsizliyini və bütövlüyünü pozmaq cəhdi kimi qiymətləndirib: "Rusiya KTMT çərçivəsində müttəfiqlik öhdəliklərinə sadiqliyini təsdiq edərək, Qazaxıstanda daxili siyasi vəziyyətin sürətlə pisləşməsi və zorakılığın artması ilə əlaqədar təcili tədbirlərin görülməsini dəstəkləyib. Biz dost ölkədə baş verən son hadisələri kənardan ilhamlanmış, təlim keçmiş və mütəşəkkil silahlı birləşmələrdən istifadə edərək dövlətin təhlükəsizliyini və bütövlüyünü güc yolu ilə pozmaq cəhdi kimi qiymətləndiririk". Rusiya Federasiya Şurasının vitse-spikeri Konstantin Kosaçev deyib ki, təşkilatın Qazaxıstanda sülhməramlı əməliyyatı həm müqaviləyə qoşulan ölkələrin daxili suverenliyi, həm də beynəlxalq hüquq baxımından qanunidir: "Bu, məcburi məhələdir. Əgər etirazçılar ekstremizmdən uzaq olsaydılar, bu, baş verməyəcəkdi". Qırğızıstan prezidentinin mətbuat katibi Erbol Sultanbayev isə bildirib ki, etirazçılarla qarşıdurmaya getməyəcəklər: "Qırğızıstan qoşunları KTMT sülhməramlı kontingentinin tərkibində Qazaxıstana göndərilsə də, etirazçıların qarşısına çıxmayacaq, yalnız strateji obyektlərin mühafizəsi ilə məşğul olacaqlar. Xüsusilə qeyd edirəm, qırğız hərbçiləri Qazaxıstandakı aksiyaların iştirakçıları ilə heç bir qarşıdurmaya getməyəcəklər". Ekspertlərin fikrincə, Qazaxıstan öz ordusu ilə silahlı üsyanın qarşısını ala bilərdi. Lakin Tokayev Qazaxıstanı "terror təhlükəsi"ndən qorumaq üçün KTMT-dən yardım istədi. Görünür, hakimiyyət KTMT-nin köməyi ilə sərt müdaxiləyə əl atmaq niyyətindədir. Rusiya isə KTMT-nin Mərkəzi Asiyada "təhlükəsizlik çətiri" rolunu gücləndirəcək. Ən əsası isə bölgə ölkələri Türk Dövlətləri Təşkilatı daxilində inteqrasiyaya ehtiyatla yanaşacaqlar. Bununla Moskva "Bir kəmər, bir yol" layihəsinin Azərbaycan üzərindən keçən Orta Dəhlizin aktuallığını azaldır və bu marşruta nəzarəti gücləndirir. Yəni bütün hallarda qazanan ruslar olur.

**Politoloq Turab Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, Qazaxıstan hökuməti müsbət addım atmadı. Onun fikrincə, KTMT-nin rəsmən ölkəyə qəbul edilməsi dövlətin suverenliyini təhlükə altında qoyur:** "Əgər Qazaxıstan xarici müdaxilə təhlükəsi qarşısında qalsaydı, o halda hərbi təşkilatdakı müttəfiqlərini köməyə çağıra bilərdi. Ölkədaxili məsələdə KTMT-yə müraciətə haqq qazandırmaq mümkün deyil. Bu, faktiki olaraq Qazaxıstanın işğalı deməkdir. Axı xarici ölkələrin hərbçiləri Qazaxıstanda nə işlə məşğul olacaq? Mülki sakinlərlə, etirazçılarla döyüşəcəklər?! Hərbi təşkilatın indiki məqamda Qazaxıstana daxil olması absurd olmaqla yanaşı, həm də suverenliyin itirilməsi deməkdir. Burada sadəcə iki fakt ola bilər. Ya hakimiyyəti itirmək təhlükəsi ilə üz-üzə qalan prezident Tokayev son çarə kimi rus ordusunu yardıma çağırıb. Yaxud heç Tokayevin də burada rolu olmayıb. Birbaşa Rusiyanın təzyiqi ilə Qazaxıstandakı hökumət KTMT-ni çağırmağa məcbur edilib.

*Birbaşa Rusiyanın təzyiqi ilə Qazaxıstandakı hökumət KTMT-ni çağırmağa məcbur edilib*

Xatırlayırsızsa, Yanukoviç dövründə Ukraynada bənzər hadisələr baş vermişdi. Yanukoviç Rusiyanı köməyə çağırsa da, o vaxt Moskva Ukraynaya birbaşa müdaxilə etməkdə gecikmişdi və hadisələr nəzarətdən çıxmışdı. Qazaxıstanda oxşar ssenari yaşana bilərdi. İstənilən halda KTMT-nin müdaxiləsi Qazaxıstanda ordunun hakimiyyətdəki mövqeyini gücləndirəcək və Rusiyaya bağlı hərbçilər ölkədə söz sahibi olacaqlar. Bu da Qazaxıstan üçün yaxşı heç nə vəd etmir. Ümid edək ki, daha çox qan tökülmədən, ortaq məxrəcə gəlmək mümkün olacaq".

## Prezident iqamətgahı azad edilib

### Silahı yerə qoymayanlar məhv ediləcək



*Qazaxıstanın bəzi şəhərlərində atışma olub*

**Hərbçilər Qazaxıstanın Almatı şəhərində Respublika meydanını tamamilə təmizləyiblər. İğtişaşların bir çox törədən şəxsləri ilk atəşlərdən az sonra qaçıblar.**

Şahidlər yaralananların və ölənlərin olduğunu bildiriblər, lakin ölənlərin sayı ilə bağlı rəsmi təsdiq yoxdur.

"Xəbər-24" telekanalının verdiyi məlumata görə, akimat (şəhər administrasiyası) və dövlət başçısının iqamətgahı da terrorçulardan azad edilib. Meydanda çoxlu sayda hərbi qulluqçu və texnika qalır.

Qazaxıstanın hüquq-mühafizə orqanları Almatıda keçirilən reydlər zamanı iğtişaşlarda iştirak etmiş 2 minə yaxın şəxsi saxlayıb.

Qazaxıstan Daxili İşlər Nazirliyi onların silahı yerə qoymaq tələblərinə müqavimət göstərənlərin məhv ediləcəyini açıqlayıb.

"Silahların yerə qoyulması ilə bağlı qanuni tələblərə silahlı müqavimət göstərildiyi halda, onlar (iğtişaşların iştirakçıları - red.) məhv edilir", - məlumatında deyilir.

Qeyd olunur ki, Qazaxıstanın vilayətlərində polis və Milli Qvardiya dəstələrinin patrul xidməti gücləndirilib, nəzarət-buraxılış məntəqələri yaradılıb, hüquq-mühafizə orqanlarını pozan şəxslər və cinayətkarlar müəyyən edilərək saxlanılır.

Dünən Qazaxıstanın Almatı şəhərinin Auezov Rayon Daxili İşlər İdarəsinin ərazisində atışma səsləri eşidilib. Bu barədə "Sputnik Qazaxıstan" məlumat yayıb.

Şəhərin yataqxana məhəllələrindən birində yerləşən idarənin yanında "Qrand Park" ticarət və əyləncə mərkəzi var. Qeyd edilir ki, şahidlər orada talançılar dəstəsini, eləcə də pulemyotlu silahlı şəxsləri görüblər.

Bundan əvvəl bir qrup etirazçının Auezov Rayon Daxili İşlər İdarəsinin binasına basqın etməyə cəhd etdiyi, polis əməkdaşlarının talançılara cavab atəşi açdığı, səsli qumbaralardan istifadə etməsi xəbər verilib.

Eyni zamanda Almatı şəhərində də atışmanın baş verdiyi bildirilir. Məlumata görə, 5-6 nəfərlik qruplar şəhərin küçələrində gəzir, tək-tək atışma səsləri eşidilir.

"Şəhərin Nazarbayev, Qoqol, Jibek Joli, Kunayev küçələri ərazisində 5-6 nəfərlik qruplar gəzir. Bəzən tək-tək atışma səsləri eşidilir. Küçələrdə adam yoxdur. Maşınlar çox azdır", - agentlik xəbər verib.



# Risklər qaçılmazdır

## Xoşagəlməz, qüsurlu bir vəziyyət yaranıb

**"Azəriqaz" əvvəlki illərdən fərqli olaraq sayğacların sıfırlanmasına vətəndaşları da cəlb edib. Yəni güzəştli qaz həcmindən istifadə etmək üçün mexaniki sayğac istifadəçiləri gərək özləri məlumatı quruma ötürsünlər".**

*Bu barədə "Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib. Ekspert bildirib ki, smart-kart tipli sayğaclarda gecə saat 00:00-dan etibarən limit özü avtomatik sıfırlanır:* "Qurum sayğacların sıfırlanmasına vətəndaşların cəlbini işçi heyətinin bu prosesi fiziki olaraq çatdırmaması ilə izah edib. Maraqlı məqamdır. Yəni dövlət xidmətinin əldə edilməsi prosesində vətəndaşın özü iştirak edir. İştirakın mahiyyəti də sayğacda olan informasiyanı "Azəriqaz"a "WhatsApp"la göndərməkdən ibarətdir. Burada söhbət 5-10 nəfərdən deyil, yüz minlərlə vətəndaşdan gedir. Təsəvvür edin, yüz minlərlə sayğac məlumatı "messencer"dən "Azəriqaz" kompüterlərinə kustar qaydada daxil edilir. Bunun əsasında qərarlar qəbul olunur. Burada xeyli risklərin yaranacağı da şəksizdir. "Azəriqaz" indiyədək 100 mindən çox vətəndaşın sayğac fotosunun "WhatsApp" əməliyyatında iştirak etdiyini bildirib. Maraqlı məqam odur ki, on minlərlə smart sayğac istifadəçiləri də bilməyərəkdən, yaxud ehtiyatlanaraq bu prosesdə iştirak edib. Düşünürəm ki, bu vəziyyət Azərbaycanın indiki rəqəmsal inkişafı baxımından olduqca xoşagəlməz, qüsurlu bir vəziyyətdir. Təəssüf ki, "Azəriqaz" ötən illərdə kütləvi olaraq, elə də zərurət olmadan on minlərlə smart sayğacları mexanikliyə çevirəndən sonra qərarların effektiv qəbulu üçün də zamanında ağlabatan mexanizmlər hazırlaya bilməyib. Yegənə üstünlüyü ucuz olması olan mexaniki sayğaclara kütləvi keçidin problem yaradacağı öncədən hesablanmalı idi". O.Gündüz qeyd edib ki, qurum mexaniki sayğacların mərkəzlə və ya nəzarətçi ilə rəqəmsal əlaqəsini təmin edən əlavə elektron qurğuların quraşdırılacağını bildirsə də görünür ki, bunu vaxtında reallaşdıra bilməyib: "Son zamanlar vətəndaşlarla informasiya mübadiləsi üçün daha effektiv mexanizmlər üzərindən, şəffaf formada həyata keçirən "Azəriqaz" görünür ki, mexaniki sayğacların istismarı üçün normal mexnizmləri hələlik qurmayıb. Yeri gəlmişkən, həm "Asan Kommunal" sahəsində və həm də "eGov" sahəsində səlahiyyətli qurum olan ASAN üçün bu vəziyyət düşündürücü olmalıdır. Maraqlıdır, vətəndaşların kütləvi olaraq "WhatsApp" mesajları göndərilməsi ilə bağlı "Azəriqaz"ın tələbini müşahidə edərkən sektorda rəqəmsallaşmaya cavabdeh olan qurumların məsul şəxsləri görəsən hansı hissləri keçirirlər?".

*"100 minlərlə vətəndaş sayğacların sıfırlanmasında özü iştirak edəcək"*

İsmayıl

# Qrip koronavirusdan ağır xəstəlikdir

## Düzgün müalicə edilmirsə, çox ağır fəsadlar yarada bilər



*"Uşaqlar arasında da koronavirusa yoluxma aşkarlanmayıb. Uşaqları qorumaq üçün təmasları azaltmaq, həkim müayinəsi nəticəsində təyin edilən müalicə aparmaq lazımdır"*

**Valideynlərin narahatlığı bitmir. Çünki uşaqlar arasında xəstələnmə halları azalmır, üstəlik, balacalar xəstəliyi ağır keçirir. Günlərlə müşahidə olunan yüksək hərarət, öskürək, halsızlıq, boğaz ağrısı balacaları əldən salıb.**

Elə, valideynləri də. Ata-analar bunun koronavirus, ya da koronavirusun yeni ştammı "Omicron" ola biləcəyindən ehtiyatlanır. Dünya ölkələrində, eləcə də qardaş Türkiyədə "Omicron"a yoluxma sayında artım müşahidə edilməsi, xəstəxana şəraitində müalicə alanlar arasında azyaşlıların da olması da narahatlığı artırır.

**Həkim-infeksionist Mərdan Əliyev "Şərq"ə açıqlamasında valideynlərin narahatlığına ciddi əsas olmadığını dedi:**

- Hazırda azyaşlılar arasında xəstələnmə halları çoxdur. Amma bu, nə koronavirusdur, nə də onun "Omicron" ştammıdır. Bu, mövsümi qripdir. Çox vaxt soruşurlar ki, qripdirsə, niyə belə ağır keçir, uşaqlar sağalmır, gec sağalırlar. Baxın, qrip, koronavirusdan da ağır xəstəlikdir. Qripə çox adam, nədənsə yüngül xəstəlik kimi baxır, elə bilirlər, asan sağalmaq olur. Belə deyil. Qrip düzgün müalicə edilmirsə, çox ağır fəsadlar yarada bilər. Koronavirus xəstələrini zahirən müəyyən etmək çətindir. Koronavirusa yoluxmada nə baş verir? Qızdırma, əzələ ağrıları, öskürək. Burun axması olmur, əksinə, burun quruyur, göz yaşarmır, asqırma olmur. Koronavirusun müalicəsi o zaman çətinləşir ki, xəstəlikdə ağırlaşma fazası başlayır. Təngnəfəslik, nəfəs darlığı və sair. Amma qripə yoluxmuş adamı uzaqdan da təyin edirsən. Göz yaşarır, burun qızarır, burun axır, üşütmə, hərarət, halsızlıq, bəlğəmli öskürək, iltihablaşma... Qripə yoluxma koronavirusdan ağır keçir. Biz həmkarlarımızla, uşaq infeksionistləri də daim əlaqə saxlayırıq, onlardan məlumat alırıq, uşaqlar arasında koronavirus testi nəticələri pozitiv çıxanlar varmı, cavab verirlər ki, yoxdur.

**M.Əliyev qeyd etdi ki, uşaqlar arasında koronavirusa yoluxmanı müəyyən etmək üçün testlər aparılır, lakin "Omicron" ştammı ilə bağlı hələ ki, analiz aparılmayıb:**

- Ümumiyyətlə testlər "Omicron" ştammına deyil, koronavirusa qarşı götürülür. "Omicron" ştamminın müəyyənləşməsində dövlət maraqlı olmalıdır. Koronavirus testinin nəticələri müsbət çıxıbsa, "Omicron" ştammının olub-olmadığını müəyyənləşdirmək üçün həmin nümunələr genetik analizə göndərilməlidir. Və yalnız genetik analiz nəticəsində şəxsin COVİD-19-un hansısa ştammına yoluxub-yoluxmadığı müəyyən edilə bilər. Son 3-4 gün ərzində hər bölgədən 10-15 test olmaqla təxminən 100-200 nümunə "Omicron"a qarşı yoxlanıb. Heç birində "Omicron" ştammı aşkarlanmayıb. Bununla "Omicron" ştamminin təhlükəlik dərəcəsini azaltmaq niyyətində deyiləm. Sadəcə, bunu deyirik ki, analiz edilmiş nümunələrdə "Omicron" ştammı aşkarlanmayıb. Uşaqlar arasında da koronavirusa yoluxma aşkarlanmayıb. Uşaqları qorumaq üçün təmasları azaltmaq, həkim müayinəsi nəticəsində təyin edilən müalicə aparmaq lazımdır. Uşaqlar bir-birini yoluxdurur, sonra da evdə böyükləri yoluxdurur. Təmaslar nə qədər az olsa, bir o qədər yaxşıdır, xəstəlikdən də qısa zamanda sağalmaq mümkündür.

Mələhət Rzayeva

# Artımlar bütün növ əmək pensiyalarına şamil olunur

## Vətəndaşımız növündən asılı olmayaraq, əmək pensiyası alırsa, onun pensiya məbləğinə artım hesablanacaq



**"Bu ildən minimum pensiya ilə yanaşı, əmək pensiyaları da ötən il üzrə nominal orta aylıq əmək haqqındakı artım faizinə indeksasiya olunacaq". Bu barədə millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov deyib. Deputat bildirib ki, indeksasiya rəsmi elan olunan faizə uyğun pensiya məbləğinin artırılması anlamına gəlir: "Adətən əmək haqqındakı artım faizi yanvar ayının ikinci yarısında elan edilir.**

Buna baxmayaraq, indeksasiya nəticəsində artımlar cari ilin yanvar ayının 1-dən hesablanır. Yəni indeksasiya nəticəsində əmək pensiyasındakı artımlar yanvar ayından hesablanır. Ötən il Dövlət Statistika Komitəsinin məlumatına görə, 2020-ci ildə orta aylıq əmək haqqında artım 11,4 faiz olmuşdu və ötən ilin əvvəlində əmək pensiyalarının məbləği həmin faizə indeksləşdirilmişdi. Artım məbləğinə gəldikdə isə, əmək pensiyaları əvvəlki ildə orta aylıq əmək haqqından artım faizinə, pensiya kapitalı isə əvvəlki ilin inflyasiya səviyyəsinə indeksləşdirilir. Son dövrlərədək əmək pensiyaları baza, sığorta və yığım hissəsindən ibarət idi. Pensiya sistemindəki dəyişikliklər nəticəsində əmək pensiyaları üçün baza hissəsi ləğv olundu. Buna görə də, pensiya məbləği tam olaraq indeksləşdirilir".

**Parlament üzvü xatırladıb ki, Maliyyə Nazirliyi bir müddət öncə 2021-ci ildə orta aylıq əmək haqqının 707,3 manatdan 742.8 manatadək yüksələcəyini proqnozlaşdırırdı:** "Bununla belə, ilk artımın nisbətən çox olacağı güman edilir. Bu, ötən il orta aylıq əmək haqqının təxminən 5 faiz artması anlamına gəlir. Rəsmi göstərici elan olunduqdan sonra isə əmək pensiyalarının indeksləşdirilməsi haqqında sərəncam imzalanır və artımlar ilin əvvəlindən hesablanır. İndeksasiya pensiyaçıların 95 faizinə (1 milyon 100 min şəxs -red) şamil olunacaq. Artımlar bütün növ əmək pensiyalarına şamil olunur. Əmək pensiyalarının 3 növü təsbit olunub. Bunlar yaşa, əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyalarıdır. Deməli, vətəndaşımız növündən asılı olmayaraq, əmək pensiyası alırsa, onun pensiya məbləğinə artım hesablanacaq. Ötən il üzrə orta aylıq əmək haqqındakı artım rəsmi olaraq elan olunduqdan sonra pensiyaçılar aldıqları təqaüd məbləğinin üzərinə həmin faizi artım kimi gəlməklə pensiyasının nə qədər artdığını özü də hesablaya biləcək".

İsmayıl

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;

İsmayıl Qocayev



# İqtisadi gücümüzü doğru istiqamətləndirməliyik

## Pandemiya dövründə daha çox riskli layihələrə üz tutmaq lazımdır

**Azərbaycanın dövlət siyasətində bir qayda olaraq, iqtisadi inkişafla bağlı məsələlərin prioritetliyi gözlənilib. Respublikamızda dinamik iqtisadi inkişaf üçün bütün şərtlər yüksək səviyyədə təmin edilib. Keçən dövrün təcrübəsinə nəzər salsaq, görərik ki, ölkəmizdə iqtisadi inkişafın ardıcıllığının təmin olunması üçün hüquqi baza davamlı şəkildə möhkəmləndirilib.**

Həm də praktiki müstəvidə zəruri tədbirlər görülüb, iqtisadi subyektlərin öz fəaliyyətlərini genişləndirmələrinə dəstək artırılıb. Prezident İlham Əliyev milli iqtisadiyyatımızda istehsal və ixrac imkanlarının genişləndirilməsini hədəfləyən çoxsaylı fərman və sərəncamlar imzalayıb. Bu sənədlər əsasında reallaşdırılan islahatlar respublikamızda yüksək rəqabət qabiliyyətinə malik liberal iqtisadiyyatın formalaşmasında mühüm rol oynayıb. Azərbaycanın koronavirus pandemiyasının yaratdığı çətinlikləri sırf öz gücünə qarşılaması milli iqtisadiyyatımızın rəqabət qabiliyyətinin kifayət qədər yüksək olduğunu əyani şəkildə təsdiqlədi. Son illər Azərbaycanda kiçik və orta sahibkarlığa dövlət dəstəyi nəzərəçarpan dərəcədə artmaqdadır. Ölkəmizdə sahibkarlığın, o cümlədən kiçik və orta sahibkarlığın inkişafı istiqamətində xeyli iş görülüb. Ötən gün İqtisadiyyat Nazirliyinə məxsus "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin (AİŞ) Müşahidə Şurası keçən il nəzərdən keçirdiyi 62 yeni investisiya layihəsindən 5-ni təsdiqləyib. Məlumata görə, daxil olan müraciətlərin 22 faizi kənd təsərrüfatı, 23 faizi qida və içki sənayesi, 13 faizi səhiyyə, 10 faizi yüngül sənaye, 8 faizi ağır sənaye, 5 faizi alternativ və bərpa olunan enerji sahələrinin payına düşür. Təsdiq edilmiş layihələrdən 1-i üzrə artıq birgə investisiya müqaviləsi bağlanıb. Bu layihə, Balakən rayonunda yerləşən, meyvə şirəsi məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən "Balacans Agro Food" MMC şirkətinin fəaliyyətinin genişləndirilməsi ilə bağlıdır. Bu məqsədlə AİŞ 4,1 milyon manat vəsait ayrılıb. Layihə çərçivəsində yeni istehsal sahələrinin yaradılması və 100 nəfərin daimi işlə təmin olunması planlaşdırılır. Hazırda AİŞ daha bir neçə yeni investisiya layihəsinin təhlilini və qiymətləndirilməsini yekunlaşdırmaq üzrədir.

2021-ci ildə AİŞ-in tərəfdaş təşkilatları ilə əməkdaşlığı da genişlənib. Belə ki, şirkət yerli, xarici sahibkar və şirkətlərlə birbaşa əlaqələr qurub, yerli investisiya tətbiq edilməsində sahibkarlara dəstək göstərilib. AİŞ-in uğurlu fəaliyyəti nəticəsində şirkətin xərcləri optimallaşdırılıb, əsas investisiya alt-portfeli və likvidlik alt-portfeli üzrə gəlirlik göstəriciləri artıb. AİŞ ölkə prezidentinin "İnvestisiya Fəaliyyətinin Təşviqi üzrə Əlavə Tədbirlər haqqında" 30 mart 2006-cı il tarixli sərəncamı ilə yaradılıb. Şirkətin əsas məqsədi öz vəsaiti hesabına və digər investorları cəlb etməklə Azərbaycanın kommersiya müəssisələrinə müddətli investisiya qoyuluşları etmək, qeyri-neft sektorunun inkişafına töhfə verməkdir. AİŞ-in Müşahidə Şurasının sədri fondları, maliyyə təşkilatları, o cümlədən beynəlxalq maliyyə institutları və banklarla daha sıx əməkdaşlıq edib. Bundan əlavə, AİŞ və Türkiyənin ATİB, TÜİB, MÜSİAD, Qətərin "JTA International", İtaliyanın "Casillo Group", Çexiyanın "CzechTrade" və s. şirkətləri arasında anlaşma memorandumları imzalanıb. Bununla yanaşı, AİŞ xarici ölkələrin ticarət nümayəndəlikləri, eləcə də şirkətləri ilə görüşlər keçirib, əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr aparıb. 2021-ci il ərzində AİŞ-in payçı olduğu layihələr üzrə də əhəmiyyətli işlər görülüb. Portfel şirkətlər üzrə 3 illik strateji inkişaf planı hazırlanıb, onların fəaliyyətinə yeni nəzarət mexanizmləri tətbiq edilib, daha səmərəli əməliyyat modelinin qurulması və korporativ idarəetmə standartlarının iqtisadiyyat naziri Mikayıl Cabbarovdur.

Bununla belə, hələlik Azərbaycanda kiçik biznesin xüsusi çəkisi, eləcə də qabaqcıl texnika və texnologiyanın istehsala tətbiqi və sair bu cür mühüm göstəricilər üzrə kiçik və orta sahibkarlığın payı sosial-iqtisadi tərəqqiyə güclü təkan vermək səviyyəsinə çatmayıb.

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında deyib ki, ürəkaçan məqam odur ki, Azərbaycan İnvestisiya Şirkəti tərəfindən təsdiq olunan layihələrin hamısı qeyri-neft sektoruna aiddir. Ekspertə görə, əsas hədəfimiz neft amilindən asılılığı maksimal şəkildə zəiflədərək öz iqtisadi gücümüzü möhkəmləndirməkdir:** "Neftdən asılılığı mümkün qədər azaltmalıyıq ki, gələcəkdə istənilən forsmajor şəraitdə iqtisadi çətinliklə üzləşməyək. Eyni zamanda neftdən gələn gəlirləri Norveç modelinə uyğun olaraq depolayaq. Bu məqam çox önəmlidir. Amma ümumi göstəricilərə baxsaq, müraciətlərin il ərzində baxılma tempi çox aşağıdır. Bunun da səbəbi hələ də mövcud olan büroktarik əngəllərdir. Hər hansı investisiya layihəsini qiymətləndirmək üçün o sahənin mütəxəssisi olmaq şərtdir. İqtisadiyyatda 20 illik təcrübəm də olsa, elə iqtisadi sahə var ki, ona birtərəfli rəy vermək mümkün deyil. Bir də görürsən ki, 10 nəfər bir yerə toplaşıb, özlərinə "ekspert qrupu" adını veriblər və istənilən sahəyə rəy verirlər. Bu, yolverilməzdir".

***"Ürəkaçan məqam odur ki, Azərbaycan İnvestisiya Şirkəti tərəfindən təsdiq olunan layihələrin hamısı qeyri-neft sektoruna aiddir"***

*F.İbrahimova görə, pandemiya dövründə daha çox riskli layihələrə üz tutmaq lazımdır:* "Bir çox yerlərdə müəyyən boşluqlar yaranıb. Dünya bazarlarında hər hansısa məhsulun qiymətinin impulsiv şəkildə artımı daxili bazara da təsir göstərməyə başlayıb. Çünki bizdə hansısa layihənin effektli olub-olmayacağı mənasız yerə uzun zaman müzakirə olunur. İstənilən layihəni işləyib təqdim edən sahibkar onun icra mexanizminə də bələddir. Onsuz da bizdə investisiya layihələri oturuşmuş biznes strukturları tərəfindən təqdim olunur. Yoldan keçən təsadüfi adam layihə təqdim etmir ki?! Ona görə də sözügedən qurumun operativliyini və iş sistemini qənaətbəxş saymıram. Bu sahədə daha çevik hərəkət etmək, tempi mümkün qədər yüksəltmək lazımdır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Qaz sayğacları ilə bağlı problemlər artır

## "Azəriqaz" əhalinin şikayətlərinə dərhal reaksiya verməlidir

**Müasir dünyada təbii qaz istifadəsi insanlar üçün çox vacib amildir. Çünki bu, ucuz və ekoloji cəhətdən ən təmiz yanacaq növüdür. Azərbaycanda təbii qazdan istifadə edən istehlakçıları fasiləsiz, keyfiyyətli və təhlükəsiz qaydada təbii qazla təchiz etmək "Azəriqaz" İstehsalat Birliyinin vəzifəsidir.**

Son vaxtlar əhali arasında təbii qazla bağlı narazılıqlar yaranıb. Xüsusilə balansın artırılması zamanı yaranan problemlər narahatlığa səbəb olur. Limiti keçməyən istehlakçılar qeyd edirlər ki, hər 20 manat yüklədikdə 4 manat, 10 manata isə təxminən 2 manat pul silinir.

**Cəmiyyətdə yaranan narazılıqlarla bağlı "Şərq"ə danışan iqtisadçı-ekspert Nazim Bəydəmirli bildirib ki, şikayətlər əsasən mexaniki sayğaclarla bağlı olur:** "Təbii qazdan istifadə üçün istehlakçılara müxtəlif tariflər təklif olunur. Tariflərdə müəyyən limitlər var. Əhalinin narazılığının səbəbi də buradan qaynaqlanır. Vətəndaşların yüklədiyi balansın müəyyən hissəsi yalnız limiti keçdikləri üçün yaranan borclarına tutula bilər.

Qeyd edim ki, sayğaclarla bağlı da narazılıqlar var. Ümumiyyətlə, "Smart" sayğaclarda problemlərin olmağı normal deyil. Çünki mexaniki olanları əvəz etdikləri üçün daha təkmilləşmiş olmalıdır. Problemlərlə qarşılaşan insanlar mütləq müvafiq orqanlara müraciət etsinlər.

"Azəriqaz" da qısa müddət ərzində tədbir görərək problemin aradan qaldırılmasını təmin etməlidir. Ən əsas məsələlərdən biri də budur ki, xalqın narazılığının yaranmaması üçün əvvəlcədən məlumatlandırmaq lazımdır. "Azəriqaz" hər bir vəziyyətə hazırlıqlı olmalı və dərhal tədbirlər həyata keçirməlidir.

Önəmli nüansı da qeyd etmək istəyirəm. Son vaxtlar bir neçə dəfə sayğac dəyişmə prosesi baş verib. Bu, heç yaxşı hal deyil. Sayğaclar dövlət büdcəsi əsasında quraşdırılır, xəzinəyə qənaət etmək baxımından "Smart" sayğacların tez-tez dəyişdirilməsi mənfi haldır. Problemləri birdəfəlik həll edib sonra quraşdırsalar, yaxşı olar".

**Xanlar ƏLİBƏY**

# Polad Həşimovun ruhunu incitdilər

## Təxribatçılar boşluqlardan istifadə edib, ordumuza, zəfərimizə çamur atırlar

**Azərbaycanın Milli Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin şəhid general-mayoru Polad Həşimovun anası Səmayə Həşimova oğlunun ölümü ilə bağlı bir sıra iddialar səsləndirib.**



O bildirib ki, P.Həşimovu Silahlı Qüvvələrin Baş Qərargah rəisi Kərim Vəliyev öldürtdürərək parazit şəxslər belə işlərinə davam edəcəklər. Görün, onlar şəhid Polad Həşimovun ruhunu necə incitdilər. Yaranmış boşluqdan istifadə edib öz iyrənc əməllərinə davam etdilər. Bu işdə də bizim anamız Səmayə Həşimovanın nitqindən istifadə etdilər. Qəhrəman ananın bu cür danışması parazit onun yerinə vəzifəyə gəlib. S.Həşimova, həmçinin, il yarımda Müdafiə naziri Zakir Həsənovun bir dəfə də olsa, onun qapısını açmadığını və buna görə birbaşa onun günahkar olduğunu söyləyib.

Müharibə dönəmindən sonra müəyyən məkrli qüvvələrin dəfələrlə şanlı ordumuzun nüfuzunu gözdən salmaq üçün atdığı təxribat xarakterli addımların şahidi olmuşuq. Bəs, anamız Səmayə xanımın məlum çıxışının məqsədli şəkildə hazırlanması və yayılmasını da təxribatların tərkib hissəsi kimi qiymətləndirmək olarmı?

**Məlum iddiaların səslənməsinin yolverilməz olduğunu deyən Əməkdar jurnalist, hərbi ekspert İbrahim Rüstəmli "Şərq"ə bildirib ki, Polad Həşimovun şəhid olması ilə bağlı konkret faktlar var:** "Səmayə xanım övlad itirmiş yaşlı anadır. O bizim hamımızın anasıdır. Onu başa düşmək əvəzinə, dediyi sözləri bu şəkildə yaymaq təbii ki, təxribatçı qüvvələrin işidir".

*Hərbi ekspert 44 günlük müharibədə qazandığımız zəfərin əhəmiyyətini hələ də Azərbaycan ictimaiyyətinə çatdıra bilmədiyimizi vurğulayıb və bunun səbəblərini göstərib:* "Peşəkarların cəhbə bölgəsinə gedə bilməməsi Müdafiə Nazirliyinin günahıdır. İkinci Qarabağ savaşından yazılanlara diqqət edin. Hanı bu ordunun 44 günlük müharibəsinin bütöv tarixi? Həmin ərazilərə gedən jurnalistlərin qələmə aldığı faktlar hanı? Yalandan orda-burda danışmaqla deyil. Ortada heç bir şey yoxdur. Gedənlər də gedib orda tankla şəkil çəkdirib gəlib. Bir sanballı yazı ortaya qoyan olmadı".

İ.Rüstəmli mövcud durumun bir növ informasiya boşluğundan və informasiya siyasətinin düzgün qurulmamasından qaynaqlandığını diqqətə çatdırıb: "Elə faktlar var ki, onları ictimaiyyət bilmir. Sadə insanları məlumatlandırmaq lazımdır. Bunu etməyi bacarmasaq, bu qüvvələrin başlıca amalı olub".

**Hərbi ekspert sözügedən iddiada adı hallanan Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Kərim Vəliyevdən də söz açıb:** "K.Vəliyevin nə marağı var idi ki, Polad Həşimovu aradan götürsün?! Belə söhbətləri etmək ayıbdır. Bir-birimizə çamur atmağı yığışdırmalıyıq. Əlbəttə, övlad itirmiş bir ana ürəyi yanıb, əsəbiləşib bunu deyə bilər. Amma biz bilirik axı K.Vəliyev böyük bir ordu zabiti, general, böyük bir şəxsiyyətdir. Mən onunla birgə xidmətdə olmuşam. Onun nə qədər kübar, ziyalı bir insan olduğunu bilirəm. Sevinirəm ki, onlarla, yüzlərlə Azərbaycan zabitini məhv edən Nəcməddin Sadıqovdan sonra bizim belə bir Baş Qərargah rəisimiz var. K.Vəliyev peşəkar döyüş texnikasını, strategiyasını bilən hərbi kadrdır. Belə bir vaxtda onun adını bu cür söhbətlərdə çəkmək ümumiyyətlə olmaz".

**Günəş Mərd**

# Direktor şagirdləri döyüb

## Məktəblərdə psixoloqların olmaması problemləri daha qabarıq göstərir




**Paytaxtda fəaliyyət göstərən 9 nömrəli tam orta məktəbin direktoru Zinyət Əhmədova təhsil ocağında şagirdlərə əl qaldırıb. Onun bu hərəkəti kameralara düşüb. Video ilə bağlı Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən müvafiq araşdırma aparılır.**

Qurumdan qeyd edilib ki, araşdırmanın nəticələri barədə əlavə məlumat veriləcək: "Ümumi təhsil müəssisələrində müəllim-şagird münasibətlərinin tənzimlənməsi və uşaqların psixoloji dayanıqlılığının artırılması məqsədilə müvafiq tədbirlər həyata keçirilir. Məktəbin, müəllimin fəaliyyətinə uyğun olmayan hallara qarşı qanunvericiliyin tələbləri çərçivəsində müvafiq tədbirlərin görülməsi hər zaman diqqət mərkəzində saxlanılır".

**Məsələ ilə bağlı "Şərq"ə danışan təhsil eksperti Elçin Əfəndi bildirib ki, bu kimi hadisələr yolverilməzdir:** "Məktəb direktoru tərəfindən şagirdlərin şiddətə məruz qalması düzgün davranış deyil. Tənbeh edə bilər, maarifləndirici söhbətlər aparıla bilər. Amma heç kimin şagirdi təhqir etməsinə, ona əl qaldırmasına ixtiyarı yoxdur. Qanunvericilik bu kimi hallara qəti icazə vermir".

Ekspert belə hadisələrin yaranma səbəblərini sadalayıb: "Bu kim halların yaşanmasının səbəbi məktəblərdə müəllimlərin və psixoloqların fəaliyyətindən qaynaqlana bilər. Məktəblərdə psixoloqların olmaması, olsa belə fəaliyyət göstərməməsi belə problemləri daha da qabarıq şəkildə üzə çıxarır.

**E.Əfəndi müəllim və direktorların şagirdlərə necə yanaşmalı olduğundan da söz açıb:** "Müəllim, direktor və yaxud digər məsul şəxslər şagirdlərə öz övladları kimi davranıb, düzgün şəkildə istiqamət verə bilsələr, belə halların yaşanmasına gətirib çıxarmaz. Direktorun kobud hərəkətləri hüquq-mühafizə orqanlarına qədər gedib çıxa bilər və hüquqi qiymət ala bilər. Ona görə diqqətli olmalıdırlar.

Dediyim kimi, şagirdlərlə düzgün münasibət qursunlar, onlara öz övladları kimi yanaşsınlar. Belə olan halda, əlbəttə ki, belə neqativ hallar da baş verməyəcək".

**Çimnaz ŞAHLAR**

# Tahir İmanov telekanallara "od püskürdü"

## "Azərbaycan mahnıları, Azərbaycan musiqiləri səslənmir, yad bir harmoniya var"



**Tahir İmanov Bəstəkarlar İttifaqından, bədii şuralardan, telekanallardan da narazıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci ilin "Şuşa İli" elan edilməsiylə bağlı imzaladığı sərəncamı yüksək dəyərləndirdiyini söyləyən "Planet Parni iz Baku" KVN Teatrının bədii rəhbəri, Əməkdar artist Tahir İmanov "Şərq"ə açıqlamasında bayağı musiqilərin efirlərdə üstünlük təşkil etdiyini də dedi.**

*T.İmanov qeyd etdi ki, 2022-ci ilin "Şuşa İli" elan edilməsindən gözləntiləri böyükdür. Ən böyük istəyi, arzusu isə 2022-ci ildə əsl Azərbaycan musiqisinin təbliğ olunduğunu görməkdir:*

- Gözləyirəm ki, "Şuşa İli"ndə əsl Azərbaycan musiqisi, əsl Azərbaycan mədəniyyəti təbliğ olunsun. Təbii ki, dövlət səviyyəsində lazımi tədbirlər keçiriləcək. Bəs telekanallar? Xüsusən də özəl telekanallar nə edəcək? Bu gün teleməkanda yalnız bayağı, yüngül musiqi, bayağı mahnılar səslənir. Azərbaycan musiqisinə aid olmayan, yad bir harmoniya var.

**T.İmanov Bəstəkarlar İttifaqını da sərt şəkildə qınadı, telekanallara "od püskürdü":**

**"Gənclər bilmir, eşitmir, dinləmir o musiqini. Onlara bu musiqini çatdıran telekanal da yoxdur"**

- Bəstəkarlar İttifaqı hara baxır? Niyə susur? Televiziyalarda bədii şuralar nə üçün yaradılıb? Nə vaxta kimi bu biabırçılıq davam edəcək? Bir neçə ildən sonra Şövkət Ələkbərova, Sara Qədimova, Mirzə Babayevi... əcnəbi musiqi hesab etməyə başlayacaqlar. Çünki onların səsi gəlmir efirlərdən, əsl Azərbaycan mahnıları, Azərbaycan musiqisi səslənmir. Efirə çıxanlar bir baxsınlar, Şövkət xanım səhnədə özünü necə aparırdı, Sara xanım necə geyinirdi, duruşu, ifa tərzi necə idi. Biz onları görmüşük. Şəxsən mən xalis Azərbaycan bəstəkarı nəvəsi kimi o səslərə qulaq asmışam. Görkəmli ifaçıları görmüşəm. Amma gənclər bilmir, eşitmir, dinləmir o musiqini. Onlara bu musiqini çatdıran telekanal da yoxdur.

**Məlahət**

## Tələbələrə kreditin verilməsi pozitiv addımdır

### Lakin onların sonradan işlə təmin olunmasına da diqqət yetirmək lazımdır

**"Tələbələrə iş tapmasında kömək edilməsi vacibdir".**



*Bu barədə "Şərq"ə təhsil kreditinin verilməsindəki mübahisəli məqamlardan danışarkən iqtisadçı-ekspert Natiq Cəfərli bildirib.*

O qeyd edib ki, mexanizmin işləkliyi praktik tətbiq olunduğu zaman aydın olacaq: "Təhsil kreditlərinin geri qaytarılması prosesində hansı dəyişikliklərin ediləcəyi məsələnin maraqlı tərəfləridir. Ümumilikdə isə tələbələrə kreditin verilməsi pozitiv addımdır. Lakin onların sonradan işlə təmin olunması önəm kəsb edir. Əgər işlə təmin edilməsələr, kreditin geri qaytarılması zamanı problemlər ortaya çıxacaq. Bir çox ölkədə böyük şirkətlərin təmsilçiləri təhsil krediti olan tələbələri izləyib onları öz şirkətlərinə dəvət edirlər. Azərbaycanda təəssüf ki, belə bir praktika yoxdur.

Tədbirlər çərçivəsində əmək bazarında təhsilli insanların yeri və rolu artırılmalıdır. İşlək mexanizm yaratmağın mümkün yolu budur".

**Xanlar**

# Kişilər də döyülür...

**Novella Cəfəroğlu:** "Zorakılıq nəinki, kişiyə və qadına, ümumiyyətlə, insana qarşı olmamalıdır"

**Mədinə Rəsulova:** "Nevroz daha çox qadının basdırılmış duyğuları, hissləri və cinsi həyatı ilə bağlı olur"

**"Qadına şiddət" mövzusu müasir dövrün ən aktual problemlərindən biridir. 2018-ci ildə aparılan təhlil göstərdi ki, dünyada qadınların təxminən hər 3-dən 1-i və ya 30 faizi zorakılığın müxtəlif növlərinə məruz qalıb. Bu səbəbdən dünyanın hər yerində qadına qarşı zorakılığa "dur" demək üçün müxtəlif qanunlar qəbul olunur.**

Bu mövzuda xüsusi təbliğatlar aparılır. İnsanlar müəyyən adlar altında təşkilatlanıb, qadın haqq və hüquqlarını müdafiə edirlər. Son zamanlar diqqətçəkən digər məqam ölkəmiz də daxil olmaqla, dünyada kişilərin şiddətə məruz qalmasıdır.

Azərbaycanda son 9 ayda 81 kişi zorakılığa məruz qalıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Dövlət Komitəsinin 860 qaynar xəttinə 369 müraciət olub: "Bunların arasında kişilər də var".

**Mövzu ilə əlaqədar "Şərq"ə danışan hüquq müdafiəçisi Novella Cəfəroğlu zorakılıq tətbiq edən qadınlara münasibətdən danışıb:** "Qadınlara qarşı zorakılıq hallarında kişilərə necə münasibət bəslənilirdisə, bu dəfə də zorakılığı tətbiq edən qadınlara qarşı münasibət elə olacaq. Zorakılıq nəinki, kişiyə və qadına, ümumiyyətlə, insana qarşı olmamalıdır".

**Psixoloq Mədinə Rəsulova zorakılıq hallarının yaranma səbəbləri haqqında danışıb:** "Zorakılıq hansısa bir münaqişə səbəbindən yaranır. Bunun şiddətə gətirib çıxması isə qadında psixi problemlərin olduğunu göstərir. Birinci növbədə onu qeyd edim ki, qadınların keçirdiyi bəzi xüsusi hallar var ki, kişilər bunları yaşamır. Məsələn, qadınlar hamiləlik dövründə yaşanan problemlərə qarşı daha emosional olub, aqressiv reaksiya göstərə bilərlər.

İqtisadi problemlər də ailədə gərginliyi artırır. Digər bir səbəb isə analıq instiktidir. Onlarda övladlarını qoruma instinkti daha güclü olur. Bunun öhdəsindən gələ bilmədikdə və ya qorxuya qapıldıqda aqressiyaya yol açılır. Əsas səbəblərdən biri də nevrozdur. Nevroz daha çox qadının basdırılmış duyğuları, hissləri və cinsi həyatı ilə bağlı olur".



**Psixoloq ailə olaraq əməl etməli olduğumuz nəsnələri sadalayıb:** "Əgər biz uşağa sinirləndiyi zaman etməli olduğu alternativləri göstərə bilmiriksə, həmin uşaq ailə qurduqdan sonra aqressiyası ilə baş edə bilməyəcək. İstər kişilərdə, istər qadınlarda bu şiddət hallarının yaranmasına gətirib çıxaracaq. Bu kimi məsələləri insanlar ailə qurmadan öncə öyrənməlidirlər. Çünki ailə qurduqdan sonra onlar bir neçə şəxsin məsuliyyətini öz üzərinə götürməli olacaqlar".

**Çimnaz ŞAHLAR**

# Yaşlanmanı sürətləndirən 11 xəta...

## Hər gün 8 saatdan artıq əyləşmək insanı, nə az, nə çox - tam 8 yaş qocaldır



(Əvvəli səh: 8-də)

**5. Dostlara sahib olmamaq**

Sosial həyatdan uzaq durmaq, dostlar, tanışlarla ünsiyyətdən qaçmaq daha tez yaşlanmağa səbəb olur. Yalnızlıq ölüm riskini də artırır. Həttа özünü yalnız hiss etmək siqaret çəkmək qədər ziyanlı hesab edilir. Və bu orqanizmin qocalma sürətini daha da artırır.

**6. Tez-tez diyeta dəyişdirmək sağlam və daim formada qalmaq istəyirsinizsə, bəlli bir qida rasionuna sahib olmalısınız.** Yaxşı olar ki, orqanizm tanıdığı qidaları qəbul etsin. Orqanizm dəyişik qidalara cəld reaksiya verə bilmir. Bu isə orqanzmi stresə salır və ona zərər verir. Stres isə orqanizmi qocaldan səbəblərin ən başında gəlir.

**7. Suyu birbaşa şüşədən içmək**

Bəlkə inanmayacaqsınız, "nə əlaqəsi var?" deyəcəksiniz. Amma suyu su şüşəsini dodaqlara yapışdırıb içməyin orqanizmi necə qoca göstərəcəyini bir bilsəniz! Birbaşa şüşədən su içmək vərdişi zamanla dodaqlarda çox dərin qırışlar əmələ gətirir. Bu qırışlarsa sizi yaşınızdan daha böyük göstərir.

**8. Tez-tez təyyarəyə minmək**

Təyyarə ilə tez-tez harasa uçmaq da orqanizmi vaxtından tez qocaldırmış. Səbəbi budur ki, təyyarə salonlarında rütubət 20 faizdən az olur. Uçuş sonrası dəridə quruluq əmələ gəlir. Quru dəridə isə qırışlar daha çox əmələ gəlir. Bunun qarşısını almaq üçün yanınızda nəm dəsmal saxlamağa çalışın. Və bol maye qəbul edin. Bu, xüsusən uzun zaman sürən uçuşlara aiddir. Yol çantasında nəmləndirici dəsmalınız mütləq olsun və onunla üzünüzü, əllərinizi tez-tez silin.

**9. İdmandan sonra duş almamaq**

İdman hərəkətlərindən sonra bədən bəlli ki, tərləyir. Tərləmə isə orqanizmi yorur. Yüngülləşmək üçün mütləq idmandan sonra yuyunmaq lazımdır. Su orqanizmi gümrahlaşdıracaq.

**10. Şəkər və süd məhsulları**

Həddən artıq şəkər və süd məhsulları qəbul etmək də orqanizmi vaxtından əvvəl qocaldır. Bunun sübutu kəsilmiş bir meyvənin açıq şəraitdə qaldıqda getdikcə rəngini dəyişib qaralmasıdır. Necə ki, meyvələrdəki şəkər proteinlə reaksiyaya girərək qaralmaya səbəb olur, eyni şəkildə şəkər kolagen ilə reaksiyaya girib insan orqanizminə zərər vurur. Süd məhsulları isə orqanizmdə iltihablaşmanı artıra bilir və orqanizm daha yaşlı görünür.

**11. Yüksək dozada vitaminlər, dərmanlar qəbul etmək**

Vitamin çatışmazlığının orqanizmə nə qədər ziyanı varsa, həddən artıq vitamin qəbul etməyin də bir o qədər ziyanı vardır. Hətta zəhərlənməyə də səbəb ola bilər. Vitaminləri, digər dərman preparatlarını yalnız həkim məsləhəti ilə qəbul edin.

**Gənc görünmək və sağlam yaşlanmaq üçün hansı tövsiyələr var?** Fındıq yemək və idmanla məşğul olmaq! Mütəxəssislər məhz fındığın tərkibində toplanmış əvəzsiz kimyəvi elementlərin vaxtından əvvəl qocalmanın qarşısını aldığı və sağlam yaşlanmanı təmin etdiyi fikrindədir.

**Məlahət Rzayeva**

# Bakcell 3 il ərzində ölkəyə 226 milyon manat həcmində sərmayə yatırıb

**Bakcell şirkətinin son 3 il ərzində Azərbaycan iqtisadiyyatına yatırdığı sərmayənin həcmi 226 milyon manat təşkil edir.**

Şirkətin fəaliyyətinin davam etməsinə və inkişafına yönəlmiş bu sərmayələr uzunmüddətli perspektivdə ölkənin ümumi daxili məhsulunun həcminə də töhfə verəcək.

Qeyd olunan məbləğin böyük hissəsi telekommunikasiya infrastrukturunun təkmilləşdirilməsinə, regionlarda 4G şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsinə və Qarabağda yüksək keyfiyyətli mobil şəbəkənin qurulmasına xərclənib.

Eyni zamanda genişmiqyaslı Korporativ Sosial Məsuliyyət proqramı həyata keçirən Bakcell şirkəti 3 il ərzində bir sıra sosial layihələrə böyük həcmdə vəsait ayırıb. Buraya şirkətin pandemiya ilə mübarizəyə, İkinci Qarabağ Müharibəsinin təsirlərinin azaldılmasına, Qarabağda bərpa işlərinin aparılmasına və əlilliyi olan uşaq və gənclər üçün bərabər imkanların yaradılmasına yönəlmiş layihələr daxildir.

Bakcell şirkəti ölkədə telekommunikasiya sahəsinin inkişafına öz töhfəsini vermək üçün gələcəkdə də Azərbaycan iqtisadiyyatına iri həcmi sərmayələr yatırmağa davam edəcək. 2021-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görülüb. Bu gün Bakcell şəbəkəsi 8700-dən çox baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 92.4%-ni əhatə edir.




**Elan**

"Azkommunal servis" Açıq Səhmdar Cəmiyyəti, "Azqazservis" Məhdud Məsuliyyətli Cəmiyyətinin möhürləri itdiyi üçün etibarsız sayılır.

Hüseynova Esmira Saləddin qızının adına Abşeron rayonu, Xırdalan şəhəri, 26-cı məhəllə Mehdi Hüseynzadə küçəsi, bina 5A, mərtəbə 2, mənzil 1A, "AAAF-İnşaat" məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən verilmiş alqı-satqı müqaviləsi No.M 5770 itdiyi üçün etibarsız sayılır.

Füzuli rayonunun Böyük Bəhmənli kənd sakini Həsənov İsgəndər Tahir oğluna Yeni Azərbaycan Partiyası tərəfindən verilmiş partiya bileti itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Məktəb Psixologiyası** (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 17



# Kim dönər kəşf edib

**Şimali Koreyada yayımlanan təbliğat videosunda dönər kababa bənzər bir yeməyin 2011-ci ildə keçmiş prezident Kim Çen İr tərəfindən hazırlandığı iddia edilib.**

"Şərq" "Hürriyyət"ə istinadən xəbər verir ki, uzun illərdir, ərzaq problemi yaşayan və xüsusilə də COVID-19 pandemiyasından sonra aclıq təhlükəsi ilə üzləşən Şimali Koreyada qəribə təbliğat kampaniyası aparılır. Hökumət sözçüsü bildirib ki, hazırkı lider Kim Çen Inın atası Kim Çen İr "buğda rulonları" adlı yemək icad edib və ölkədəki ərzaq qıtlığına baxmayaraq satışlar sürətlə artır. "Buğda rulon"larının dönərlə oxşarlığı diqqət çəkib.

*Qeyd edək ki, 2021-ci ilin oktyabr ayında dərc edilən hesabatda Birləşmiş Millətlər Təşkilatı Şimali Koreyada insanların ciddi aclıq problemi ilə üzləşə biləcəyi barədə xəbərdarlıq etmişdi. Şimali Koreya Prezidenti Kim Çen In isə bu problemin həlli olaraq qənaət siyasətini təklif edib və insanları 2025-ci ilə qədər daha az yeməyə çağırıb.*

**Aygün Tahir**

# Gələcəyin ekoloji qülləsi

Qüllədə ofislər və mənzillər yerləşəcək



**Birləşmiş Ərəb Əmirliyinin Əbu-Dabi şəhərində tikiləcək qüllə yaşıllıq sahələri olan ayrı-ayrı bloklar şəklində əsas dayağın ətrafında yerləşdiriləcək.**

Azərtac xarici saytlara istinadla xəbər verir ki, hər bir belə platforma 360 dərəcə mənzərə təqdim edir. Qüllədə ofislər və mənzillər yerləşəcək.

Arxitektorların fikrincə, gələcəyin binası kimi xarakterizə olunan qüllə, həm də ekoloji təmiz memarlığın kobud sənayeləşmə üzərində qələbəsinin simvoludur.

*Qeyd olunub ki, Barselona şəhərindən olan memarların layihəsi Əbu-Dabi rəsmilərinin təşkil etdiyi müsabiqədə birinci yerə layiq görülüb.*







# "Qiyamət buzlağı"na yaxınlaşırıq

## Fəlakətin tarixini verdilər, bəzi ölkələr xəritədən silinəcək

**Antarktikada "Qiyamət buzlağı" adı verilmiş Thwaites ərazisində ilk dəfə elmi tədqiqat işləri aparılacaq. Bu ərazi təxminən Böyük Britaniyanın ölçüsündədir. Buzlağın əriməsi isə bir neçə ölkə və şəhərin yer üzündən silinməsi ilə nəticələnəcək. Buzlağın qarşıdakı 10 il ərzində əriməyə başlayacağı proqnozlaşdırılır.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, 32 alim məhz buzlağın ərimə tempini tədqiq etmək üçün "Qiyamət buzlağı"na yol alıb. Elm adamları bildirir ki, geridə qoyduğumuz 2021-ci ildə iqlim dəyişikliyi qlobal istiləşmə Yer planetinə mənfi təsirlərini aşkar nümayiş etdirdi. Bu sərsəm gedişin durdurulmaması, dünyamızın daha sürətlə qiyamətə yaxınlaşması deməkdir. Odur ki, 32 alim birləşərək buzlağı tədqiq etmək qərarına gəlib. Və dünyanın ən çətin iqlim şəraitinin mövcud olduğu və gedib çatılması böyk fədakarlıq tələb edən əraziyə - Thwaitesə yola düşüblər. Alimlərin orada 2 ay qalması planlaşdırılıb. Buzlağın tədqiqi 50 milyon dollarlıq layihə çərçivəsində həyata keçirilir. Alimlər 2 ay müddətində buzlaqdakı suyun hərarətini, buzun qalınlığını və dəniz yatağını araşdırıb əmələ gəlmiş çatlara baxış keçirəcəklər. Alimləri aparan gəmi Thwaitesin Amundsen dənizinə baxan tərəfinə doğru üzəcək.

**Geteborg Universitetinin rəsmisi Anna Wahlin buzlağa getmək çox çətin olduğu üçün indiyədək burada tədqiqat aparılmadığını deyib.** Hazırkı tablo isə gələcək üçün ümidverici deyil. Anna Wahlin deyib ki, buzlaq əvvəlki görüntüsünü artıq itirib. Buzlaq qatı buz təbəqəsi olmayan hamar bir cama bənzəyir.

**Digər alim Erin Pettit isə bildirir ki, buzlaqda çatlar əmələ gəlib və 10 il ərzində çatlar parçalana bilər.** E.Pettit buzlağın əriməsiylə bağlı 3 mülahizə üzərində dayanır: buzlağı okean suları altdan əridir. Buzlağın torpaq qatı dəniz yatağı başlandığı yerdə çökür, bu səbəbdən ayrılan parçalar okeanda üzərək əriyirlər. Nəticədə buzlağın başqa qisimləri də zədələnmiş şüşə kimi çatlayaraq qırılırlar. Buzlağın tədqiqatını ABŞ və Böyük Britaniya birgə həyata keçirəcək. Alimlər bu fikirdədir ki, buzlaq tamam əriyərsə, dəniz səviyyəsi 65 santimetr yüksələcək. Bu isə bir neçə ölkə və şəhərin sulara qərq olacağı deməkdir. Fəlakət bununla bitməyəcək. Nyu-York, Tokio, Mayami, Şanxay və Mumbay kimi nəhəng şəhərlər sel və daşqınlara məruz qalacaq, Maldiv adaları, Kiribati və Tuvalu kimi dəniz səviyyəsindən aşağıda olan ada ölkələri üçün isə bu, əsl qiyamət olacaq.

**Məlahət**





# "Ebru Gündeş sənə baxmaz"

## Seren keçmiş həyat yoldaşına sataşdı



**Türkiyəli müğənni Ebru Gündeşlə Yaşar İpekin eşq yaşadığı iddia olunub.**

**Axşam.az xəbər verir ki, mövzu ilə bağlı açıqlama Yaşarın keçmiş həyat yoldaşı, türkiyəli aparıcı Seren Serengildən gəlib. O, eks-ərinin adını çəkmədən onu bu yuxudan ayılmağa çağırıb:**

**"Ebru Gündeşin belə kasıb, pulsuz biri ilə adının çıxmasına inanmıram. Ebru ona baxmaz, o əvvəl idi. Bəzən insanları gündəmə gətirmək üçün hansısa sevgi xəbərləri yayılır, sonra isə təkzib olunur".**

***Qeyd edək ki, Serenlə Yaşar 2020-ci ildə boşanıb. Evliliyin bitməsinə səbəb Yşarın aparıcıya qarşı şiddətə əl atması olub.***

# "Küçədə görsəm yolumu dəyişərəm"

## Söhbət Fahriyedən gedir?



**Aktrisa Elçin Sanqunun sonuncu müsahibəsi müzakirələrə səbəb olub.**

**Axşam.az türk mediasına istinadən xəbər verir ki, aktrisa çəkilişlərdə bəzi insanlarla birlikdə yer almamağa diqqət etdiyini açıqlayıb:**

**"Küçədə görsəm yolumu dəyişdirəcəyim çox məşhur var. İnşallah bu sektordan adları silinər. "Bu niyə belə pullar qazanır" dediklərim də var. Hamımızın belə fikirləri yoxdur ki? Yəni insani dəyərlərə sahib olmayanlar. Sonuna qədər müdafiə etdiyim açıqlamamdır. Bunlar çəkilişdə qarşılaşdığım şəxslərdir. Təbii ki, ad çəkməyəcəm. Onlarla yenidən birlikdə işləmərəm".**

**Elçinin bu sözlərlə "Kurt Seyit" və "Şura" seriallarının çəkilişləri zamanı mübahisə yaşadığı həmkarı Fahriye Evcenə işarət etdiyi iddia olunub.**

# Nilperi Şahinkaya qorxur

## "Sevgilimdən evlilik təklifi alsam, qəbul etmərəm"



**Türkiyəli aktrisa Nilperi Şahinkaya şəxsi həyatı barədə danışıb.**

**Axşam.az xəbər verir ki, 1,5 ildir ki heykəltaraş Emre Yusufi eşq yaşayan aktrisa evlilikdən qorxduğunu açıqlayıb:**

**"Sevgilimdən evlilik təklifi alsam, qəbul etmərəm. Evlilik məni qorxudur. Anam və atam da daxil olmaqla, yaxşı bir cütlük görmədim. Hamı boşanır, evliliyə inancım qalmayıb. Sevgilimlə ömür boyu birlikdə yaşayaram. Sanki imza hər şeyi korlayacaq kimi gəlir".**



# Yaşlanmanı sürətləndirən 11 xəta...

## Hər gün 8 saatdan artıq əyləşmək insanı, nə az, nə çox - tam 8 yaş qocaldır

**Başqa nələr insanı vaxtından tez qocaldır? "Şərq" "Milliyet.com"a istinadən insanın qocalmasına, yaxud, belə deyək, əsl yaşından daha böyük görünməsinə səbəb olacaq xətaları diqqətə çatdırır. Mümkün olduqca bu xətalardan uzaq durun.**

**1.Çox ağır sırğalar taxmaq (qadınlara aiddir).**

Ağır sırğalar qulaqların həssas bölgələrinə zərər verir. Üz dərisi zaman keçdikcə gərilir və elastikliyini itirir. Qulaqlar bədənin görünən, üzdə olan parçasıdır. Qulaq ucları sallaq və yaşlı görünürsə, bu, sizin də yaşlı görünməyinizə səbəb olacaq.

**2. Hormon səviyyəsini nəzarətdə saxlamamaq**

Orqanizmdəki hormon səviyyəsi illər keçdikcə dəyişir. Hormon tarazlığı pozularsa, bu, bütün orqanizmə təsirini göstərəcək. Əhval-ruhiyyəniz pozulacaq, dəriniz, saçlarınız da dəyişib daha pis görünməyə başlayacaq. Bunun qarşısını almaq üçün ildə bir dəfə hormon səviyyəsiylə bağlı analiz vermək məsləhətdir. Hansı hormon faizi aşağı olarsa, normallaşması üçün lazımi müalicə alın.

**3. Gün ərzində 8 saatdan artıq əyləşmək**

Günün böyük hissəsini əyləşmiş vəziyyətdə keçirənlər, fiziki aktiv olmayanlar bioloji yaş həddindən daha yuxarı yaşda görünürlər. Uzun müddət passiv şəkildə bir yerdə əyləşib qalmaq xromosomların ölçüsünü də qısaldır. Bu isə bəzi xəstəliklərə yol açır. Mütəxəssislər gün ərzində ən azı 30 dəqiqə idmanla məşğul olmağı, hər yarım saatdan bir ayağa qalxıb gəzişməyi tövsiyə edirlər.





**4. Normadan artıq qırmızı ət yemək**

Normadan artıq qırmızı ət yemək, meyvə-tərəvəzə önəm verməmək də sizi əsl yaşınızdan daha yaşlı göstərəcək səbəblərdən biridir. Daha çox ət yemək qanda serum fosfat səviyyəsini artırıb xroniki böyrək çatışmazlığına səbəb ola bilər.

# Bu içki unikaldır

## 40 yaşı keçəndən sonra hər gün bunu içməlisiz



**Nutrisoloq Anastasiya Kornilova 40 yaşdan sonra fiziki və psixi sağlamlıq üçün vacib içkini açıqlayıb.**

Medicina.az xəbər verir ki, həkim kakaonun bu yaşdan sonra hər kəs üçün müalicəvi təsir etdiyini bildirib. "Kakao içkisi unikaldır, antioksidantlarla zəngindir, arterial təzyiqi salır, iltihabi azaldır, xolesterini tənzimləyir, beyini aktivləşdirir. Tərkibində çox sayda polifenol və flavonoidlər olduğundan, ürək-damar xəstəlikləri üçün profilaktik qoruyucu təsiri var.

Kakao içdikdə əhvak yüksəlir, depressiya, xandra azalır, çünki qanda triptofan çoxalır.

Orqanizmdə, bədəndə yaşla bağlı dəyişikliklərin qarşısını almaq üçün 40 yaşdan sonra müntəzəm olaraq gündə 1 fincan isti kakao için".

# "Onlara sadəcə gülürəm"

## "Kainat gözəli" ittihamlara cavab verdi



**Bəylər arasında keçirilən "Kainat gözəli-2022" yarışmasının qalibi kərküklü Dərya Kamil olub.**

"Şərq" "Haber Global"a istinadən xəbər verir ki, 15 ölkənin qatıldığı yarışmada birinci yerə kərküklü atlet və həkim Dərya Kamil layiq görülüb. D.Kamilin birinci yeri tutması sosial şəbəkədə müzakirələrə səbəb olub. Dərya Kamili bəyənməyənlər "Yaxşı, kainatın bundan xəbəri varmı?", "Bəlkə onun daxili gözəlliyinə baxıblar", "Koronaya görə yarışmaya heç kim qatılmadı", "Kainatın tarazlığı pozuldu" kimi şərhlər yazıblar. Jurnalist Arif Hürə müsahibə verən Dərya Kamil onu tənqid edənlərə cavab verib: "Özlərindən xəbərsiz insanların haqqımda nə dediyi məni maraqlandırmır. "Torpil" deyənlərə isə sadəcə gülürəm. Kiçik yaşlarımdan intizamlı, ardıcıl işlədim və uğur qazandım. Boş yerə paxıllıq etməyin mənası yoxdur. Bu titulu qazandığım üçün xoşbəxtəm". Kərkük İdman Təbabəti Dərnəyinin sədri Dərya Kamil gənclərin idmana başlaması üçün əlindən gələni etdiyini bildirib: "Ərəb dünyasındakı gənclərə yaxşı nümunə olmaq istəyirəm. Gəncləri narkotikdən, alkoqoldan uzaq tutmağa çalışıram. Ən böyük arzularım idman sahəsində iz qoymaq, kasıblara, kimsəsizlərə kömək etməkdir".

**Aygün Tahir**